QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 233 (5705) **8 dekabr** 2018-ci il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**


# Azərbaycan vətəndaşı ölkə başçısının diqqət mərkəzindədir



Səh 2

3

“MDB dövlət başçılarının qeyri-rəsmi Sankt-Peterburq görüşü işgüzar və səmimi şəraitdə keçdi”



5

Milli Məclisin növbəti plenar iclası keçirilib



13

“Azərbaycan terrorla mübarizənin ən fəal tərəfdarı kimi çıxış edir”



# Azərbaycan vətəndaşı ölkə başçısının diqqət mərkəzindədir

***Azərbaycan Prezidenti İlham Əliyevin bölgələrə səfəri daim əlamətdar hadisələrlə, əhalinin müxtəlif sahələrdə təminatının yaxşılaşdırılması ilə yadda qalıb. Ölkə başçısının səfərlərində müxtəlif obyektlərin istifadəyə verilməsi, əhalinin yaşayış şəraitinin daha da yaxşılaşdırılması, bölgədə abadlıq və quruculuq işləri üçün Prezidentin Ehtiyat Fondundan maliyyə vəsaitlərinin ayrılması, bir növ ənənə halını alıb. Əsasən, təhsil ocaqlarının, tibb müəssisələrinin, ictimai-iaşə obyektlərinin təməlinin qoyulması, yaxud istifadəyə verilməsi belə ənənələrdəndir.***



Ölkə başçısının cənub bölgəsinə səfəri belə ənənələrin davamı olaraq, yerli əhali ilə yanaşı, bütün Azərbaycan ictimaiyyəti tərəfindən yüksək dəyərləndirilir. Cənab Prezidentin Lənkəran rayonunda çoxmənzilli binaların dam örtüklərinin dəyişdirilməsi ilə bağlı tədbirlər haqqında Sərəncamı, 148 çoxmənzilli binanın dam örtüyünün dəyişdirilməsi üçün Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Lənkəran şəhər icra hakimiyyətinə 3,66 milyon manat ayrılması Azərbaycan cəmiyyətinin diqqət mərkəzindədir. Azərbaycan xalqı ölkə başçısının diqqət və qayğısını yüksək qiymətləndirir, əhalinin yaşayış şəraitinin yaxşılaşdırılması üçün atıdığı addımları və verdiyi qərarları alqışlayır.

## Reallaşdırılan layihələr nəticə etibarı ilə əhalinin yaşayışının daha da yaxşılaşdırılmasına xidmət edir

Prezidentin rəhbərliyi, diqqət və qayğısı sayəsində, Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının icrası nəticəsində Lənkəranda infrastruktur layihələrinin yerinə yetirilməsi və ümumilikdə, əhalini narahat edən problemlərin həlli sahəsində mühüm tədbirlər həyata keçirilib. Ərazidə müxtəlif obyektlər tikilib istifadəyə verilib ki, bütün bunlar nəticə etibarı ilə əhalinin yaşayışının daha da yaxşılaşdırılmasına xidmət edir. Ölkə başçısının diqqət və qayğısı bütün istiqamətləri əhatə edir və əhalinin ixtiyarına verilən obyektlər bunu təsdiq edir.

Ölkəmizdə idmanın inkişafına hər zaman qayğı ilə yanaşan Cənab Prezident təkcə paytaxt ərazisində deyil, bölgələrdə də idman komplekslərinin inşasına üstünlük verir və bunun reallaşması üçün bütün köməklikləri edir. Lənkəranda Olimpiya İdman Kompleksi buna misal ola bilər. Məhz bu qayğının təzahürüdür ki, həmvətənlərimiz dünya miqyaslı yarışlarda ölkəmizi layiqincə təmsil edir, medallar qazanır və hər bir idman sahəsində yüksək nəticələrə və uğurlara imza atır. Təbii ki, bu idman komplekslərinin istifadəyə verilməsi həmin nailiyyətləri, uğurları şərtləndirir və həmvətənlərimizin dövlət qayğısını hiss etməsi, dövlət başçısının diqqəti, köməyi ardıcıl olan uğurlara zəmin yaradır.

Təkcə idman sahəsində deyil, bir çox sahələrdə, eləcə də, nəqliyyat-infrastruktur layihələrinin həyata keçirilməsində əhali bu diqqəti, bu qayğını hiss edir. Lənkəran Beynəlxalq Hava Limanının istifadəyə verilməsi bu diqqətin və bu qayğının bariz nümunəsidir. Cənub bölgəsində məskunlaşmış insanların hava nəqliyyatından istifadə etməsi üçün paytaxta gəlişi ilə bağlı əlavə çətinliklərin aradan aqaldırılması üçün reallaşdırılan bu layihə dövlət başçısının diqqət və qayğısını təsdiq edir. Təkcə hava nəqliyyatı deyil, avtomobil nəqliyyatında da yeni layihələr göz qabağındadır və Cənab İlham Əliyevin Lənkərana səfərindən, bir qədər öncə, Bakı-Ələt-Astara yolunun açılış mərasimini keçirməsi, Bakıdan cənub bölgəsinə gedişdönüşü, ən azı 1,5 saat qısaldan həmin yolu istifadəyə verməsi bu qayğının təzahürüdür. Sözügedən yol, öz əhəmiyyətinə görə, çox dəyərlidir və əhalimizin həyat şəraitinə, güzəranına və turizmin inkişafına xeyli dərəcədə müsbət təsir göstərəcək.



Cənab Prezidentin cənub bölgəsinə diqqətini daha çox tibb müəssisələrinin əhalinin ixtiyarına verməsində görmək mümkündür. Belə müəssisələrin sırasına "Lənkəran-İstisu" Sağlamlıq Mərkəzi, Regional Müalicə-Diaqnostika Mərkəzi, Uşaq Sağlamlıq, Əlillərin Reabilitasiya və Gənclər Mərkəzləri daxildir. Bu isə, o deməkdir ki, ölkə başçısı əhalinin sağlamlığına diqqət və qayğı ilə yanaşır.

## Vətəndaşlar da, öz növbəsində, ölkə başçısının diqqət və qayğısını hiss edirlər

Dövlət başçısının həmin bölgədə reallaşdırdıqları, sözsüz ki, bununla bitmir və bölgədə Bayraq Meydanı, əlil və şəhid ailələri üçün, ümumilikdə, 90 mənzilli, evləri qəzalı vəziyyətdə olan sakinlər üçün 80 mənzilli 3 yaşayış binası inşa edilib. Lənkəran Dövlət Dram Teatrının, Şəhər Mədəniyyət Mərkəzinin, Tarix-Diyarşünaslıq Muzeyinin, 350 çarpayılıq Rayon Mərkəzi Xəstəxanasının binaları və mərkəzi stadion əsaslı təmir olunub, ən müasir tələblərə cavab verən turizm obyektləri, 42 ümumtəhsil müəssisəsi istifadəyə verilib. Bununla yanaşı, Lənkəran şəhərinin su təchizatı sistemi yenidən qurulub, 110/35/10 kV-luq "Lənkəran-2" elektrik yarımstansiyası istismara verilib, yolnəqliyyat infrastrukturu yaxşılaşdırılıb, xalçaçılıq müəssisəsi və digər iri istehsal, eyni zamanda, emal müəssisələri yaradılıb, 30 mindən çox yeni iş yeri açılıb, abadlıq-quruculuq işləri görülüb.

Göründüyü kimi, ölkə başçısının həyata keçirdiyi tədbirlər saysız-hesabsızdır və bu tədbirlərin görülmsində məqsəd əhalinin rifah halının, yaşayış şəraitinin yaxşılaşdırılması, səhhətinin, sağlamlığının qayğısına qalmaqdır. Ümumilyətlə, Cənab Prezident İlham Əliyevin həyata keçirdiyi tədbirlərin, gördüyü işlərin kökündə ölkə vətəndaşları, onların həyat şəraitinin, vəziyyətinin daha da yaxşılaşdırılması durur. Bu isə, onu deməyə əsas verir ki, hər bir Azərbaycan vətəndaşı ölkə başçısının diqqət mərkəzindədir. Sözsüz ki, vətəndaşlar da, öz növbəsində, Prezidentin diqqət və qayğısını hiss edir, Onun həyata keçirdiyi tədbirlərin alqışlanılması isə, təsdiq edir ki, bu diqqət və bu qayğı yüksək qiymətləndirilir.

***İnam HACIYEV***

# Hikmət Hacıyev: "MDB dövlət başçılarının qeyri-rəsmi Sankt-Peterburq görüşü işgüzar və səmimi şəraitdə keçdi"

**Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində keçirilmiş MDB dövlət başçılarının qeyri-rəsmi Zirvə toplantısında iştirakı və tədbirin əhəmiyyəti barədə AZƏRTAC-a müsahibə verib. Müsahibəni təqdim edirik.**



*- Dekabrın 6-da MDB dövlət başçılarının Sankt-Peterburq şəhərində qeyri-rəsmi Zirvə toplantısı keçirildi. Prezident İlham Əliyev Zirvə toplantısında iştirak etdi. Bu tədbirin əhəmiyyəti və müzakirə olunan məsələlər barədə nə deyərdiniz?*

- Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Prezidenti Vladimir Putinin dəvəti ilə dekabrın 6-da Sankt-Peterburq şəhərində keçirilən MDB dövlət başçılarının qeyri-rəsmi Zirvə toplantısında iştirak etdi. Keçən il isə MDB dövlətlərinin qeyri-rəsmi Zirvə toplantısı Moskvada keçirilib. Bu qəbildən olan zirvə toplantılarında MDB çərçivəsində il ərzində görülən işlər barədə geniş fikir mübadiləsi aparılır və gələcək fəaliyyət istiqamətləri ətraflı müzakirə olunur. Bu dəfə də keçirilən qeyri-rəsmi Zirvə toplantısı əsnasında eyni məqsədlər güdülürdü. MDB dövlət başçılarının qeyri-rəsmi Sankt-Peterburq görüşü də işgüzar və səmimi şəraitdə keçdi, dövlət başçıları birlikdə nahar etdilər və sonra Mariinski Teatrında "Şelkunçik" balet tamaşasına baxdılar. Bir məqama da toxunmaq istərdim ki, tamaşa zamanı Prezident İlham Əliyev tədbirə ev sahibliyi edən Prezident Vladimir Putinin yanında sağda əyləşmişdi. Bu, dövlətimizin başçısına və onun şəxsiyyətinə xüsusi hörmətin və ehtiramın əlamətidir.

Zirvə görüşündə Prezident İlham Əliyevin tədbirdə iştirak edən bütün dövlət başçıları ilə qarşılıqlı maraq kəsb edən məsələlər ətrafında məzmunlu söhbəti və müzakirələri oldu.

*- Ermənistanın baş naziri vəzifəsini icra edən Nikol Paşinyan ilə də müzakirələr aparıldımı?*

- Bəli. Tədbir əsnasında Prezident İlham Əliyevin Ermənistanın baş naziri vəzifəsini icra edən Nikol Paşinyan ilə də söhbəti oldu. Söhbət zamanı Ermənistan-Azərbaycan münaqişəsinin həlli üzrə fəal danışıqların davam etdirilməsi və atəşkəs rejiminin möhkəmləndirilməsi ətrafında müzakirələr aparıldı. Nəzərə almaq lazımdır ki, bu iki amil bir-biri ilə sıx şəkildə bağlıdır və biri-digərini tamamlayacaq şəkildə davam etdirilməlidir. Son dövrlərdə qoşunların təmas xətti və dövlət sərhədi boyunca nisbi sakitlik mövcuddur. Bu da münaqişənin həlli üzrə substantiv və intensiv danışıqların aparılması üçün yaxşı fon yaradır. Bu, əslə münaqişənin dondurulması və ya qəbuledilməz olan status-kvonun saxlanması anlamına gəlməməlidir. Qəti mövqeyimiz ondan ibarətdir ki, işğala əsaslanan status-kvo tezliklə dəyişdirilməlidir. ATƏT-in Minsk qrupunun həmsədr ölkələri də dövlət başçıları səviyyəsində status-kvonun dəyişdirilməsinin vacibliyini dəfələrlə vurğulayıblar. Münaqişənin həlli üzrə danışıqlar nəticəsində Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində ərazi bütövlüyü və suverenliyi bərpa olunmalıdır.

Eyni zamanda, söhbət çərçivəsində Ermənistan və Azərbaycan arasında saxlanılan şəxslərin qarşılıqlı şəkildə dəyişdirilməsi məsələsi də müzakirə olundu.

*- Azərbaycanın bu məsələdə humanist xarakter daşıyan və "hamının hamıya" prinsipinə söykənən mövqeyinə Ermənistanın münasibəti necədir?*

- Prezident İlham Əliyev Azərbaycanın bu məsələdə mövqeyini vurğulayaraq bildirib ki, "hamının hamıya" prinsipi əsasında dəyişdirmə tam olmalı və o cümlədən Dilqəm Əsgərov və Şahbaz Quliyev onların arasında yer almalıdır. Humanist xarakter daşıyan bu kimi addımlar danışıqlar prosesinə müsbət təsir göstərə bilər. ATƏT-in Minsk qrupunun həmsədrləri də bu mövqeyi dəstəkləyir və ona görə də Ermənistan tərəfi bunu nəzərə almalıdır.

Soydaşlarımız Dilqəm Əsgərov və Şahbaz Quliyevin azad edilməsi və Azərbaycana qaytarılması məsələsini dövlətimizin başçısı ATƏT-in Minsk qrupunun həmsədrləri, ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşik və digər tərəfmüqabilləri ilə görüşlərdə hər dəfə qaldırır.

Xüsusilə qeyd etmək lazımdır ki, dövlətimizin başçısı Dilqəm Əsgərov və Şahbaz Quliyevin azad edilməsi üçün böyük səylər göstərir və bu məsələni daim diqqətdə saxlayır.

*- Ermənistanın baş naziri vəzifəsini icra edən Nikol Paşinyan iki ölkə arasında rabitənin yaradılması barədə danışır. Bu barədə nə deyərdiniz?*

- Düşənbədə dövlətimizin başçısı ilə Ermənistan baş naziri arasında olan söhbət əsnasında razılıq əldə edilmişdi ki, zəruri hallarda əlaqə yaratmaq üçün imkanlar təmin edilsin. Bu əlaqələr müntəzəm xarakter daşımır, dövlət başçıları, xarici işlər və ya müdafiə nazirləri səviyyəsində olan təmaslar deyil, aşağı səviyyədə və lazım olan hallarda həyata keçirilir.

*- Kütləvi informasiya vasitələrində verilən məlumata görə, Belarus Prezidenti Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının növbəti baş katibinin Belarusdan olacağını bildirib. Ermənistan tərəfi isə bunu təkzib edərək fərqli fikir səsləndirib. Bu barədə nə demək olar?*

- Sözügedən məsələ ilə bağlı biz də kütləvi informasiya vasitələrindən məlumat almışıq. Kuluarlarda gedən söhbətlər onu deməyə əsas verir ki, MDB ölkələrinin qeyri-rəsmi Zirvə görüşündən əvvəl Avrasiya İqtisadi İttifaqının Sammitində Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) baş katibi məsələsi müzakirə olunub. Çox dərinə getmək istəməzdim, amma bəzi mənbələrdən aldığımız məlumata görə KTMT-nin baş katibi məsələsi ilə bağlı iclasda gərgin vəziyyət yaranıb. Bizdə olan məlumata əsasən tam əminliklə deyə bilərik ki, Ermənistan KTMT-nin baş katibi vəzifəsini itirib və Ermənistanın rəyi və fikri nəzərə alınmadan böyük ehtimalla yaxın gələcəkdə bu vəzifəyə Belarusun nümayəndəsi təyin olunacaq. Ermənistanın baş katib vəzifəsini özündə saxlamaqla bağlı bütün səyləri iflasa uğrayıb. Bu, ümumilikdə, Ermənistanın siyasəti və diplomatiyasının növbəti məğlubiyyətidir.

*- Hadisələrin bu məcrada inkişafını Azərbaycanın növbəti qələbəsi kimi qəbul etmək olarmı?*

- Bildiyiniz kimi, Azərbaycan KTMT-nin üzvü deyil və ölkəmiz təşkilat daxilində gedən proseslərə müdaxilə etmək fikrində deyil. Prezident İlham Əliyevin bu ilin noyabrında Belarusa səfərindən öncə bu ölkənin səfirini qəbul edərkən səsləndirdiyi fikirlərə istinad etmək istərdim. Dövlətimizin başçısı bildirmişdi: "Ermənistan Azərbaycan ərazilərini işğal edən ölkədir və əlbəttə ki, biz hərbi-siyasi təşkilat olan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına hansı ölkənin nümayəndəsinin rəhbərlik etməsinə biganə deyilik. Bu məsələlərin tərəfdaşlar və dostlar arasında müzakirəsi təbiidir". Ermənistan Azərbaycana qarşı işğalçılıq siyasətini davam etdirmək üçün KTMT-nin arxasında gizlənməyə çalışır. Ermənistanın üzləşdiyi aprel məğlubiyyətinin təcrübəsi də bunu göstərdi.

Heç kimə sirr deyil ki, yeni baş katibin təyinatı məsələsini Prezident İlham Əliyev Ermənistan istisna olmaqla, KTMT-yə üzv olan bütün ölkələrin dövlət başçıları ilə bu və ya digər formada müzakirə edib.

Sözsüz ki, işğalçı dövlət olaraq, Ermənistanın çoxsaylı xarakter daşıyan hər bir siyasi, diplomatik, iqtisadi və digər müstəvilərdə olan məğlubiyyəti Azərbaycanın qələbəsi kimi dəyərləndirilə bilər. Çünki bu məğlubiyyətlərin şərtləndirilməsində Azərbaycanın rolu kifayət qədər böyükdür. Nəticə etibarilə, Ermənistanın tamhüquqlu üzv olduğu KTMT-də növbəti dəfə alçaldıcı məğlubiyyəti bu sıradan olan nümunələrdən biridir.

Prezident İlham Əliyev bəziləri kimi deklarativ deyil, dərin strateji düşüncə və praqmatik baxışlar əsasında yüksək məharətlə və müdrikliklə "strateji diplomatiya" adlandırılan siyasət yürütmək iqtidarında olan şəxsiyyətdir. Bu "strateji diplomatiya" Azərbaycanın qələbəsini təmin edir, milli maraqlarımızın qorunmasına, ölkəmizin beynəlxalq münasibətlərdə mövqeyinin və rolunun gücləndirilməsinə xidmət edir.




## Leonid Yakuboviç: Heydər Əliyev yüksək intellekt, güclü xarizma sahibi idi

**"Heydər Əliyev yüksək intellekt, güclü xarizma sahibi idi. Mən həyatımda yalnız iki və ya üç bu cür adamla rastlaşmışam". Rusiyalı məşhur teleaparıcı Leonid Yakuboviç "Moskva-Baku" portalına müsahibəsində söyləyib.**

AZƏRTAC xəbər verir ki, L.Yakuboviç Azərbaycanın ümummilli lideri Heydər Əliyevlə görüşünü xatırlayaraq deyib:

-Bu hadisə çoxdan, lap çoxdan olub. Hətta hansı ildə görüşdüyümüzü unutmuşam. Bizim "Pole çudes" komandası Bakıya gəlmişdi, idman zalında oyun keçirdik, ertəsi gün Heydər Əliyevlə görüşdük.

Əvvəlcə bu görüş 20 dəqiqəlik protokol tədbiri kimi nəzərdə tutulmuşdu. Heydər Əliyev stolun yuxarı başında əyləşmişdi. O, Azərbaycanın siyasi və iqtisadi vəziyyətini qısaca izah etdi, amma əslində mən heç nə başa düşmədim. İyirmi dəqiqəlik söhbətdən sonra o dedi: "Hamınız azadsınız, siz isə, Leonid, əyləşin".

Beləcə, 20 dəqiqəlik görüş 2 saat yarımlıq söhbətə çevrildi. Daha doğrusu, bu, mənim monoloqum idi, Heydər Əliyev susur, mən isə bütün həyatımı, lap doğulduğum vaxtdan ona söyləyirdim. O, heç nə soruşmur, amma məni diqqətlə dinləyirdi. Hərdən başını tərpədir, mən yorulanda söhbəti istiqamətləndirirdi. O, özünü əsla məndən yuxarı tutmur, öz mövqeyini qabartmırdı. Hərdən sakit səslə nə isə soruşurdu. Mən ona hər şeyi danışdım: atam və anam haqqında, atamın harada vuruşması barədə, necə dolanmağımız haqda - hər şeyi! O vaxt mən hiss etmirdim ki, danışan təkcə mənəm. Onun yanında özümü çox rahat hiss edirdim.

Heydər Əliyev yüksək intellekt, güclü xarizma sahibi idi. Mən həyatımda iki və ya üç bu cür adamla rastlaşmışam. Onun gözləri çox şeydən xəbər verirdi.

Heydər Əliyev təpədən-dırnağa qədər bilik, intellekt sahibi idi. Bizim yeganə görüşümüzün təsirindən hələ də özümə gələ bilmirəm. Mən bütün söhbətimizi kağıza köçürmək istədim, amma nədənsə alınmadı. Məndə belə hiss yaranmışdı ki, onunla min ildir tanışıq və o, sanki mənim gəlməyimi, hər şeyi ona danışmağımı gözləyirdi.

Sonradan onunla söhbətimizi təhlil edərək xalqın nə üçün onun ardınca getdiyini başa düşdüm. Onu dinləyir və eşidirdilər. O, nəhəngdir. Mən güman etmirəm ki, ondan qorxurdular. Xalq ona hədsiz hörmət bəsləyir və ümid edirdi ki, respublikanı yalnız o, xilas edə bilər.

Heydər Əliyevin oğlu İlham ona çox oxşayır. Bu, Əliyev geninin gücünə dəlalət edir. Təbiət bu genin qüdrətini İlham Heydər oğluna ötürüb. O, atasına xas olan daxili qüvvəni, güclü xarakteri əxz edib.

**Fəridə Abdullayeva**
**AZƏRTAC-ın xüsusi müxbiri**
**Moskva**

# “Kardeş kalemler” jurnalı noyabr nömrəsini görkəmli yazıçı Mir Cəlal Paşayevin 110 illiyinə həsr edib

***Türkiyədə nəşr olunan “Kardeş kalemler” aylıq Avrasiya ədəbiyyat jurnalı noyabr buraxılışını görkəmli alim, yazıçı və pedaqoq Mir Cəlal Paşayevin 110 illik yubileyinə həsr edib.***

AZƏRTAC xəbər verir ki, jurnalın bu nömrəsi Avrasiya Yazarlar Birliyi və “Buta” Azərbaycan mədəniyyətini yayma və yaşatma dərnəyinin ortaq layihəsi olaraq hazırlanıb. Jurnalda akademik Nizami Cəfərovun “Mir Cəlal və dünya xalqları”, professor Təyyar Salamoğlunun “Bir gəncin manifesti” esse romanı”, yazıçı-şair İftixar Piriyevin “Mir Cəlalın manifesti”, filologiya elmləri doktorları Almaz Ülvinin “Mir Cəlal: bir yarpaq söz”, Vaqif Yusiflinin “Mir Cəlal həqiqətləri”, Dünya Gənc Türk Yazıçılar Birliyi məsləhət Şurasının rəhbəri Əkbər Qoşalının “Mir Cəlal Paşayev”, gənc tədqiqatçı Şahanə Müşfiqin “Həcv və satira janrında iki usta isim: Mir Cəlal və Əziz Nesin” məqalələri yer alıb. Bundan başqa, yazıçının “Dostumun qonaqpərvərliyi” və “Nazik mətləb” hekayələri Oktay Hacımusanın tərcüməsində türkdilli oxuculara təqdim olunub.

Məqalələrdə Mir Cəlal Paşayevin zəngin yaradıcılıq yolu ətraflı təhlil olunur, ədibin böyük ədəbi ustalıqla qələmə aldığı əsərlərin mahiyyətindən bəhs edilir. Tədqiqatçılar əsaslandırırlar ki, Mir Cəlal Paşayev əsərləri bütün dövrlərdə cəlbedici olmuş, geniş oxucu auditoriyasına sahib çıxa bilmişdir.










Nəfis tərtibatda oxucuların görüşünə gələn jurnalda görkəmli ədibin həyatını əks etdirən maraqlı fotolara da yer ayrılıb.

# Elmar Məmmədyarov: “Bakı-Tbilisi-Qars Avropa-Asiya dəmir yolu yükdaşımaları əlaqəsinə əhəmiyyətli dərəcədə töhfə verəcək”

***Ötən illər ərzində Azərbaycan qeyri-neft sektorunun, xüsusilə də ölkədə biznes və sərmayə mühitinin inkişafı və nəqliyyat infrastrukturlarının inşası və buraya sərmayə qoyuluması istiqamətində nəzərə çarpacaq addımlar atıb. Lakin bizim səylərimiz yalnız Azərbaycanla məhdudlaşmır. Azərbaycan Hökumətinin əsas prioritetləri arasında Şərq-Qərb və Şimal-Cənub oxları boyunca qonşu ölkələr və ATƏT-ə üzv olan digər maraqlı dövlətlər ilə əməkdaşlıqda regional, trans-regional və çoxmodullu nəqliyyat dəhlizlərinin inkişafı yer alır. Artan bağlılığa töhfə verən layihələr arasında ilkin mərhələdə 6-7 milyon ton, daha sonra isə ildə 17 milyon ton yükgötürmə qabiliyyəti olan Bakı-Tbilisi-Qars dəmir yolu var. Yeni İpək Yolu adlanan Bakı-Tbilisi-Qars trans-Avropa və trans-Asiya dəmir yolu şəbəkələrini birləşdirəcək, eləcə də Avropa və Asiya arasında etibarlı və inteqrasiya olunmuş dəmir yolu yükdaşımaları əlaqəsinə əhəmiyyətli dərəcədə töhfə verəcək yeni yaranmış qitələrarası dəhlizin əsas seqmentidir.***



AZƏRTAC xəbər verir ki, bunu Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov “ATƏT məkanında iqtisadi bağlılığın təşviq edilməsi” tədbirində çıxışı zamanı deyib. Nazir deyib: “Şübhəsiz ki, bağlılıq əməkdaşlığımızın və dayanıqlı iqtisadi artımın möhkəmlənməsinə töhfə verə bilir. ATƏT-in Nazirlər Şurasının 2016-cı il tarixli Hamburq Sammitinin bağlılığın təşviq edilməsi və yaxşı idarəetmənin möhkəmləndirilməsi ilə bağlı qərarı, eləcə də ATƏT-in əvvəlki bütün müvafiq sənədləri və qərarları bu istiqamətdə əməkdaşlıq üçün faydalı çərçivəni təmin edir. Ticarətin davamlı şəkildə artan həcmini nəzərə alaraq, aydındır ki, bir-biri ilə rəqabətdə olmayan, lakin bir-birini tamamlayan etibarlı ticarət marşrutlarının müxtəlifliyi olmalıdır”.

Elmar Məmmədyarov qeyd edib ki, Azərbaycan Hökumətinin başqa bir prioritet sahəsi tranzit və ticarətdə daha şəffaf gömrük proseslərinə imkan verən səmərəli ticarət qaydalarını təqdim etmək, idxal, ixrac və tranzit sərhəd prosedurlarının səmərəliləşdirilməsi də daxil olmaqla nəqliyyat və ticarətin asanlaşdırılmasında yaxşı idarəetmədir. Ticarətin asanlaşdırılmasında elektron imza prinsipinə əsaslanan elektron bəyannamə sistemi kimi informasiya texnologiyalarının tətbiqinə xüsusi diqqət ayrılır.

“Xüsusilə qeyd etmək istədiyim bir sahə Yeni Bakı Limanı ətrafında Azad Ticarət Zonasının yaradılması vasitəsilə ticarət-logistika sektorunda xarici şirkətlər üçün əlverişli və azad sərmayə rejiminin təmin edilməsi üzrə səylərimizdir. Bu Azad İqtisadi Zonanın məqsədi Azərbaycanın çoxsaylı ticarət yolları üzrə Avropa və Asiya arasında ticarəti asanlaşdıracaq regional ticarət-logistika mərkəzi kimi cəlbediciliyinin artırılmasıdır.

İcra üçün artıq hazır olan, Azərbaycanı və Mərkəzi Asiyadakı tərəfdaşlarımızı, habelə potensial olaraq Əfqanıstanı da əhatə edəcək “Xəzər dənizi regionunda bağlılığın və yaşıl limanların təşviqi” adlı ATƏT-in büdcədənkənar layihəsi Avropa və Asiya arasında bağlılığı daha da gücləndirəcəkdir. Fürsətdən istifadə edərək, bu mühüm layihəni ərsəyə gətirdiyi üçün ATƏT-in iqtisadi və ətraf mühit fəaliyyətləri üzrə əlaqələndiricisi səfir Vuk Zuqiç və onun komandasına təşəkkür edirəm və ATƏT-in üzv dövlətlərini bunun reallaşmasına töhfə verməyə çağırıram”, - deyə nazir vurğulayıb.

# Milli Məclisin növbəti plenar iclası keçirilib

***Dünən Milli Məclisin növbəti plenar iclası keçirilib. Əvvəlcə Milli Məclisin sədri Oqtay Əsədov gündəlik barədə məlumat verib. Bildirib ki, iclasın gündəliyinə 21 məsələ daxildir. Dekabrın 7-də Azərbaycanın ilk parlamentinin ilk iclasının keçirilməsindən 100 il ötdüyünü deyən Milli Məclisin sədri bu münasibətlə deputatları təbrik edib.***



Əvvəlcə cari məsələlər müzakirə olunub. Sonra gündəlikdəki məsələlərə baxılıb. İlk olaraq Milli Məclis sədrinin müavini, təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Valeh Ələsgərov "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə sənədi ikinci səsverməyə təqdim edib. Bildirilib ki, Qanuna "Ələt azad iqtisadi zonası haqqında" Qanunla müəyyən edilmiş hallarda zona ərazisində bu Konstitusiya Qanunundan fərqli hüquqi tənzimləmə tətbiq edilir və həmin zonanın fəaliyyəti ilə bağlı qəbul edilmiş aktlar azad zona daxilində məcburi hüquqi qüvvəyə malikdir." məzmunlu yeni 5.4-cü maddə əlavə edilir. Sənəd səsvermə yolu ilə təsdiqlənib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə parlamentdə üçüncü oxunuşda müzakirəyə çıxarılmış "Aviasiya haqqında", "Dövlət borcu haqqında", "İnzibati icraat haqqında" qanunlarda, eləcə də Cinayət Prosessual və İnzibati Xətalar məcəllələrinin müvafiq maddələrində təklif olunan dəyişikliklərə dair məsələləri şərh edib. Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq qəbul edilib.

Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov "Psixoloji yardım haqqında" qanun layihəsini üçüncü oxunuşda təqdim edib. Bildirilib ki, layihə Milli Məclis rəhbərliyinin tapşırığı və Səhiyyə komitəsinin təşəbbüsü ilə yaradılan işçi qrupu tərəfindən hazırlanıb. Ölkədə psixologiya sahəsinin tanınmış mütəxəssisləri iş prosesində yaxından iştirak ediblər. Dünya ölkələrinin bu sahədə təcrübəsi öyrənilib. Sənədə parlamentin plenar iclasında birinci və ikinci oxunuşda baxılıb və təqdim olunan bir sıra təkliflər nəzərə alınıb. Diqqətə çatdırılıb ki, sənəd Azərbaycanda psixoloji yardım göstərilməsinin hüquqi əsaslarını, psixoloji yardım alan şəxslərin və psixoloqların hüquqlarını və vəzifələrini müəyyən edir, bu sahədə yaranan münasibətləri tənzimləyir. Azərbaycanda daimi yaşayan vətəndaşlığı olmayan şəxslər psixoloji yardım sahəsində ölkə vətəndaşları ilə bərabər hüquqlara malikdirlər. Qanunda psixoloji profilaktika və maarifləndirmə, psixoloji məsləhət, psixoloji dəstək, psixoloji diaqnostika, psixoterapiya, psixoloji reabilitasiya və psixoloji korreksiya, psixoloji ekspertiza, psixoloji treninq, psixoloji yardımın növləri olaraq təsbit olunur. Dövlət vətəndaşların vaxtında, keyfiyyətli psixoloji yardım almaq hüququna təminat verir. Psixoloji yardımın göstərilməsi könüllülük, konfidensiallıq, qanunçuluq, humanistlik, insan və vətəndaş hüquq və azadlıqlarına əməl edilməsi prinsipləri əsasında həyata keçirilir. Şəxsin psixoloji vəziyyəti və ona göstərilən psixoloji yardım haqqında məlumatlardan sərbəst istifadə hüququ onun özünə və qanunla nəzərdə tutulmuş hallarda buna icazə verilən şəxslərə məxsusdur. Sənəd səsə qoyularaq təsdiqlənib.

Sonra hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Dövlət qulluğu haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib. Sənəd səsvermə yolu ilə təsdiq olunub.

Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı "Uşaq hüquqları haqqında" və "Qaçqınların və məcburi köçkünlərin (ölkə daxilində köçürülmüş şəxslərin) statusu haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi barədə məlumat verib. Bildirilib ki, Qanunda edilməsi nəzərdə tutulan dəyişikliklər "Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikası 2017-ci il 14 aprel tarixli Qanuna uyğunlaşdırma məqsədi daşıyır.

Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov "Sahibkarlıq fəaliyyəti haqqında" və "Çayçılıq haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri barədə məlumat verərək bildirib ki, bu sənədlər Azərbaycan Prezidenti İlham Əliyevin qanunvericilik təşəbbüsü qaydasında komitəyə daxil olub. Qeyd edilib ki, "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizminin təkmilləşdirilməsi haqqında" ölkə Prezidentinin 2018-ci il 31 iyul tarixli Fərmanı ilə Sahibkarlığa Kömək Milli Fondu ləğv edilib və İqtisadiyyat Nazirliyinin tabeliyində Sahibkarlığın İnkişafı Fondu publik hüquqi şəxs təsis edilib. Həmin Fərmanla Sahibkarlığın İnkişafı Fondunun Nizamnaməsi və Fondun vəsaitindən istifadə qaydası təsdiq edilib. Diqqətə çatdırılıb ki, hər iki qanun layihəsində edilən dəyişikliklər adıçəkilən Fərmana uyğun olaraq İqtisadiyyat Nazirliyinin tabeliyində publik hüquqi şəxs statusunda olan Sahibkarlığın İnkişafı Fondunun yaradılması ilə bağlıdır və sənədlərdə "Sahibkarlığa Kömək Milli Fondu" sözləri "müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanının" sözləri ilə əvəz edilir. Sənədlər səsə qoyularaq qəbul edilib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə "Avtomobil yolları haqqında" Qanunda dəyişiklik edilməsi barədə məlumatında vurğulayıb ki, sənədin 6, 21, 27 və 59-cu maddələrində dəyişiklik edilməsi zərurəti Azərbaycan Prezidentinin "Bakı Nəqliyyat Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2018-ci il 2 aprel tarixli Fərmanının icrası məqsədilə hazırlanıb. Milli Məclisin deputatları həmin dəyişiklikləri razılıqla qarşılayıblar.

İclasda "Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyi (1919-2019)" yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə sənəd ikinci oxunuşda səsə qoyularaq qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Qanunda dəyişiklik edilməsi barədə sənədi ikinci oxunuşda təqdim edərkən bildirib ki, təklif edilən dəyişikliyin məqsədi məhdud məsuliyyətli cəmiyyətin təsis sənədlərində edilmiş dəyişikliklərin və qeydə alınmış faktların sonrakı dəyişikliyin elektron qaydada qeydiyyata alınmasının hüquqi mexanizminin müəyyən edilməsindən ibarətdir. Sənəd səsə qoyularaq təsdiq olunub.

Sonra Əli Hüseynli Mənzil və İnzibati Xətalar Məcəllələrində dəyişiklik edilməsi haqqında sənədləri ikinci oxunuşda şərh edib. O, vurğulayıb ki, hər iki sənədə edilən dəyişiklik qanunvericiliyin təkmilləşdirilməsi, terminlərin dəqiqləşdirilməsi, çoxmənzilli binaların, tikintisi və ya yenidən qurulması tam başa çatmış kooperativ binanın idarə olunması ilə bağlı mexanizmləri təkmilləşdirməyə məqsədi ilə hazırlanıb. Hər iki sənəd ayrı-ayrılıqda səsə qoyularaq təsdiqlənib.

Əli Hüseynli "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini ikinci oxunuşda təqdim edib. Deputatlar qanunvericiliyin uyğunlaşdırılması məqsədilə sənədin 12 və 14-cü maddəsinə təklif oluna dəyişikliyə də razılıq verdilər. Sənəd ikinci oxunuşda qəbul edilib.

Komitə sədri Əli Hüseynli Seçki Məcəlləsində dəyişiklik edilməsi haqqında sənədlə bağlı məlumatında deyib ki, 2016-cı ilin sentyabrında ölkəmizdə keçirilmiş referenduma əsasən Konstitusiyada bir sıra dəyişikliklər edilməsi nəticəsində Seçki Məcəlləsində mövcud olan 178.1-ci maddə ilə ziddiyyət meydana gəlib. Belə ki, növbədənkənar Prezident seçkilərində seçilmiş Prezidentin səlahiyyət müddəti oktyabr ayında yox, 7 il əvvəl Prezident seçildiyi tarixdə bitir. Həmin ziddiyyətin aradan qaldırılması üçün məcəllədə dəyişiklik edilməsi zərurəti yaranıb. Milli Məclisin deputatlar Seçki Məcəlləsində dəyişikliyə dair qanun layihəsini ikinci oxunuşda məqbul sayıblar.

Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi barədə məlumat verib. Bildirilib ki, Məcəllənin dərman vasitələri haqqında qanunvericiliyin pozulması ilə bağlı 221-ci maddəsinə bir sıra əlavələr nəzərdə tutulub. Əlavələrə əsasən, dərman vasitələrinin istehsalına, daşınmasına və saxlanmasına, eləcə də topdan satışına dair tələblərin pozulmasına görə vəzifəli şəxslər min beş yüz manatdan iki min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər beş min manatdan yeddi min manatadək məbləğdə cərimə edilir. Qeyd olunan xəta inzibati tənbeh almış şəxs tərəfindən inzibati tənbeh vermə haqqında qərar qüvvəyə mindiyi gündən bir il ərzində təkrar törədildikdə vəzifəli şəxslər iki min beş yüz manatdan dörd min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər altı min manatdan səkkiz min manatadək məbləğdə cərimə edilir. Məcəllənin 452-ci maddəsinə təklif olunan əlavələrdə isə göstərilir ki, aptek təşkilatlarına dair tələblərin pozulmasına görə vəzifəli şəxslər beş yüz manatdan yeddi yüz manatadək məbləğdə, hüquqi şəxslər min manatdan iki min manatadək məbləğdə cərimə edilir. Bu xəta təkrar törədildikdə vəzifəli şəxslər min beş yüz manatdan iki min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər beş min manatdan yeddi min manatadək məbləğdə cərimə edilir.

Sənəd ikinci oxunuşda səsə qoyularaq təsdiq olunub.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə bildirib ki, "Avtomobil nəqliyyatı haqqında" Qanuna təklif olunan dəyişikliklər "Yol hərəkəti haqqında" Qanunda dəyişiklik edilməsi barədə 2018-ci il 23 fevral tarixli Qanunun icrası məqsədilə hazırlanıb. Belə ki, Azərbaycanın tərəfdar çıxdığı "Beynəlxalq avtomobil daşımalarını həyata keçirən nəqliyyat vasitələri heyətinin işinə dair Avropa Sazişi"nə əsasən ölkəmizdə beynəlxalq daşımaları həyata keçirən sürücülərin iş və istirahət rejiminə nəzarətin təşkili və bu məqsədlə rəqəmsal taxoqrafların tətbiqi nəzərdə tutulub. Qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda təsdiqlənib.

İclasın sonunda Ziyad Səmədzadə "Sığorta fəaliyyəti haqqında" Qanunda dəyişiklik edilməsi barədə sənədi də ikinci oxunuşda təqdim edib. Qeyd olunub ki, son illərdə ölkənin maliyyə və bank sektorunda baş verən proseslər sığorta sektoruna da təsirsiz ötüşməyib, nəticədə 2 sığorta şirkətinin müflis olmasına, 4 sığorta şirkətinin könüllü olaraq bağlanmasına, bəzi sığorta şirkətlərinin isə maliyyə dayanıqlığı riski ilə üzləşməsinə səbəb olub. Sığorta münasibətlərini tənzimləyən mövcud qanunvericilikdə sığorta və təkrarsığorta şirkətlərinin məcburi və könüllü ləğvetmə prosesinin əhatə olunmasına baxmayaraq, onların sağlamlaşdırılması ilə bağlı müddəa mövcud deyil. Komitə sədri sənədə təklif olunan dəyişikliklərin kapital tələblərinə cavab verməyən sığorta və təkrarsığorta şirkətlərinə vaxtında müdaxilə edilməsi, həmin şirkətlərin iflasdan xilas edilməsi və iflasa getdiyi təqdirdə istehlakçıların hüquqlarının qorunması məqsədi ilə şirkətin vəsaitlərinin qorunması üçün hüquqi əsas yaradır.

Sənəd səsə qoyularaq ikinci oxunuşda qəbul edilib. Bununla da Milli Məclisin iclası öz işini başa çatdırıb.

***Rəfiqə Kamalqızı***

# Paşinyanın və Ermənistanın yeri göstərildi

***Rusiyanın Sankt-Peterburq şəhərində 6 noyabr tarixində keçirilən MDB dövlət başçılarının qeyri-rəsmi zirvə görüşü diqqət mərkəzində olmaya bilməz və bütün dünya ictimaiyyətinin bu görüşə çox həssas yanaşdığı mətbuat səhifələrindən tutmuş sosial şəbəkələrə qədər öz əksini tapır. Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin MDB dövlət başçılarının qeyri-rəsmi zirvə görüşündə iştirakı, ələlxüsus, bu görüşdə prezidentlərin yanaşı, Ermənistanın baş nazir səlahiyyətlərini icra edən Nikol Paşinyanın isə bir küncdə qərarlaşması bir çox məqamlara aydınlıq gətirir.***

Rusiyalı məşhur jurnalist Dmitri Smirnovun "tvitter" səhifəsində yayılan görüntülərdə Vladimir Putin prezidentlərin olduğu sıranın mərkəzində oturduğu, ondan sağda Azərbaycan Prezidenti İlham Əliyev, solda isə Belarus Prezidenti Aleksandr Lukaşenkonun əyləşdiyi, Ermənistan təmsilçisinin isə bu şəkillərdə olmadığı görünür. Jurnalistin "tvitter" səhifəsi ilə yanaşı, Rusiya saytlarının yaydığı bəzi fotolarda da Ermənistanın baş naziri vəzifələrini icra edən Nikol Paşinyan görünmür. Hətta bəzi fotolar Paşinyanın tamamilə kənarda, mühafizəçilərlə birgə əyləşdirildiyini təsdiq edir.



## Fotolar Paşinyanın nəinki dünyada, hətta MDB çərçivəsində heç bir nüfuza malik olmadığını, siyasətçi kimi qəbul edilmədiyini təsdiqləyir

Ermənistana məxsus saytlarda, xüsusilə, "lragir.am" saytında yaranan rezonansı da başa düşmək çətin deyil. Başa düşmək çətin deyil ki, bu fotolardakı mənzərə, əslində, Azərbaycan Prezidenti İlham Əliyevin beynəlxalq nüfuzunun hansı səviyyədə olduğunu bir daha təsdiqləməklə yanaşı, Nikol Paşinyanın hesaba alınmayan, sayılmayan biri olduğunu nümayiş etdirir və bu da, sözsüz ki, erməniləri bərk qıcıqlandırır. Ona görə bərk qıcıqlandırır ki, dünyanın bütün liderləri, o cümlədən, Vladimir Putin Azərbaycan Prezidentini nüfuzlu, xarizmatik və güclü lider kimi qəbul etdiyi halda, Ermənistanın baş naziri səlahiyyətlərini icra edən Paşinyanı siyasətçi kimi belə qəbul etmir və elə küçə nümayişçisi hesab edir.

## İclasdan sonra Aleksandr Lukaşenkonun KTMT baş katibi barədə açıqlaması Ermənistana tərs şillə effekti verdi

Ermənistanın daxil olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatındakı (KTMT) ölkələrin belə bir çoxlarının dövlət başçılarının, ələlxüsus, Nursultan Nazarbayevin və Aleksandr Lukaşenkonun Nikol Paşinyana etibar etmədiyini, onun olduğu yerdə heç vaxt əhəmiyyətli mövzular haqqında danışmadığını ermənilər belə təkzib edə bilmirlər. Təşkilatın Astanada keçirilən sonuncu iclasından sonra öz ölkəsinə qayıdarkən Lukaşenkonun Azərbaycan səfirini qəbul etməsi və baş verənlərlə bağlı müzakirələr aparması Yerevana ən ağır zərbə idi və bunu heç zaman unuda bilməyən ermənilərin özləri də onlara etibar edilmədiyini çox gözəl bilirlər. Ermənistanın təşkilatda baş katiblik müddətinin 2020-ci ilə qədər davam edəcəyi halda, KTMT-də erməni baş katib Yuri Xaçatrov haqqında Ermənistanda cinayət işinin açılması səbəbilə təşkilata üzv ölkələrin, xüsusilə, Qazaxıstan və Belarusun Ermənistanın yeni namizəd irəli sürməsinə qarşı çıxmaları onsuz da ermənilərə tutarlı bir dərs hesab olunurdu və etibarsızlığın açıq şəkildə ifadə olunması kimi ictimaiyyət tərəfindən qəbul olunur.

Sankt-Peterburqda keçirilən sammitdə baş nazir vəzifəsini icra edən Nikol Paşinyanın lider kimi qəbul edilməməsi ilə yanaşı, iclasdan sonra Belarus prezidenti Aleksandr Lukaşenkonun açıqlaması Ermənistana tərs şillə effekti verdi. Daha dəqiq desək, Lukaşenkonun Sankt-Peterburqda qeyri-rəsmi şəkildə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) baş katibin seçildiyini bəyan etməsi Ermənistan üçün gözlənilməz olduğu qədər ağır zərbə hesab olunur. "Biz az qala gözlənilmədən KTMT-nin iclasını keçirdik və prinsip etibarilə baş katibin təyinatı problemini həll etdik", deyərək baş katibin Belarus nümayəndəsi olacağını təsdiqləyən Lukaşenko bununla ermənilərin, ümumiyyıtlə, hesaba alınmadığını təsdiqlədi.

## Sankt-Peterburqda keçirilən görüşdə baş verənlər baş nazir səlahiyyətlərini icra edən küçə nümayişçisinin reytinqinə əsaslı zərbədir

MDB dövlət başçılarının və Avrasiya İqtisadi İttifaqına üzv dövlətlərin Sankt-Peterburqda keçirilən sammitində Azərbaycan Prezidentinin üstünlüyü, bir sözlə, ölkəmizin qələbəsi və Nikol Paşinyanın timsalında Ermənistanın Avrasiya platformasında məğlubiyyəti açıq-aşkar göründü. Həmçinin, Ermənistanın baş nazir səlahiyyətlərini icra edən Paşinyanın kimliyi, nüfuzu, ona olan etibarsızlığın fonunda tamamilə aydın oldu. Bu küçə nümayişçisinə göstərilən münasibət, əslində, Ermənistana da bir mesaj hesab olunur və bunu hamıdan yaxşı ermənilər özləri başa düşürlər.

Astana sammitindən sonra baş katibin seçilməsi üçün 6 dekabr tarixində Sankt-Peterburqda keçiriləcəyi gözlənilən növbəti iclasın Rusiya prezidenti Vladimir Putinin təklifi ilə təxirə salınması, əslində, seçkiqabağı Nikol Paşinyana sərf edirdi və bunu elə onun özü də xahiş etmişdi. Baş katiblik məsələsində məğlub olacağını və bu məğlubiyyətin seçki öncəsi reytinqinə zərbə vuracağını anlayan küçə nümayişçisi Ermənistanda elə bir süni inam yaratmışdı ki, guya KTMT-nin baş katibi məsələsi hələ həll olumayıb və İrəvanın hələ də şansları var. Lakin 6 dekabr tarixində Sankt-Peterburqda keçirilən görüşdə baş verənlər və Lukaşenkonun açıqladıqları hər şeyin həll edildiyini aşkarlayır və bu da seçkiqabağı Paşinyan üçün heç də arzuolunan deyil. Daha dəqiq desək, Sankt-Peterburqda keçirilən görüşdə baş verənlər baş nazir səlahiyyətlərini icra edən küçə nümayişçisinin reytinqinə və seçkilərdə qələbəsinə əsaslı zərbədir.

Ermənistan baş nazirinin mətbuat katibinin Lukaşenkonun dediklərini təkzib etməsi heç də təsadüfi deyil və məqsəd Paşinyanın, ümumilikdə, Ermənistanın məğlubiyyətini ört-basdır etməkdir. Buna baxmayaraq, əksər erməni şərhçilər Azərbaycanın Belarus və Qazaxıstanın vasitəsilə Ermənistanı məğlub etdiyini açıq şəkildə etiraf edirlər. Məsələn, "lragir.am" saytı yazır ki, görünür, Qazaxıstan da, Belarus da öz oyunlarını davam etdirirlər, Azərbaycan istədiyinə nail olur və bu, gələcək müharibədə KTMT-nin Ermənistana dəstək verə biləcəyi ehtimalını sıradan çıxarır. Erməni şərhçilərin bu etirafı heç də əbəs yerə deyil və bu, əslində, Ermənistanın məğlubiyyətinin, Azərbaycanın isə işğalçı dövlət üzərində növbəti diplomatik qələbəsinin etirafıdır.

*İnam HACIYEV*

## Elmar Məmmədyarov ATƏT-in media azadlığı üzrə nümayəndəsi ilə görüşüb

Milanda ATƏT Nazirlər Şurasının 25-ci iclasında iştirak edən xarici işlər naziri Elmar Məmmədyarov ATƏT-in media azadlığı üzrə nümayəndəsi Harlem Dezir ilə görüşüb.



Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə ATƏT-in ifadə və media azadlığı üzrə öhdəlikləri, eləcə də qarşılıqlı maraq doğuran digər məsələlər əsas danışıq mövzusu olub. ATƏT-in media azadlığı üzrə nümayəndəsi ilə ölkəmiz arasında mövcud əməkdaşlıq münasibətlərinin perspektivləri üzrə fikir mübadiləsi aparılıb və bu istiqamətdə atıla biləcək mümkün addımlar müzakirə olunub. Tərəflər arasında, həmçinin yeni texnologiya vasitələrinin media və ifadə azadlığı üzrə inkişafa təsiri ətrafında fikir mübadiləsi aparılıb. Azərbaycanda media və ifadə azadlığı üzrə inkişafa toxunan nazir Elmar Məmmədyarov ölkə əhalisinin 80 faizinin internet istifadəçisi olduğunu vurğulayıb.

## "Azərbaycan Cənubi Qafqazda və dünyada ictimai-siyasi sabitliyin, sülhün bərqərar olmasında maraqlıdır"

Cənubi Qafqaz ölkələrinin hüquq-mühafizə orqanları arasında qarşılıqlı və səmərəli əməkdaşlıq, eləcə də bu ölkələrin Avropa ölkələrinin müvafiq strukturları ilə birgə fəaliyyəti mütəşəkkil cinayətkarlığa, terrorizmə qarşı birgə mübarizədə, narkotiklərin qanunsuz dövriyyəsinin qarşısının alınmasında və digər sahələrdə uğurların əldə olunmasında mühüm rol oynayır. AZƏRTAC xəbər verir ki, bu fikirlər Gürcüstanda akkreditə olunmuş polis attaşelərinin dekabrın 7-də Tbilisidə keçirilmiş forumundakı çıxışlarda səslənib.

Gürcüstan Daxili İşlər Nazirinin müavini Nino Cavaxadze çıxış edərək təmsil etdiyi nazirliyin modernləşdirilməsi istiqamətində görülən işlər, bu sistemdə həyata keçirilən islahatlar barədə məlumat verib. Bildirib ki, Gürcüstan mütəşəkkil cinayətkarlığa və terrorizmə qarşı mübarizə, sərhəd mühafizəsi və digər sahələrdə region dövlətləri, eləcə də Avropa ölkələri ilə sıx əməkdaşlıq edir. Nazir müavini bu sahədə əldə olunan uğurlardan danışıb, Gürcüstanda akkreditə olunmuş polis attaşeləri ilə əməkdaşlığı yüksək qiymətləndirib.




Avropa İttifaqının Gürcüstandakı nümayəndəliyinin məsul əməkdaşı Katalin German çıxışında deyib ki, Gürcüstanda fəaliyyət göstərən diplomatik korpus və polis attaşe aparatları ilə birgə əməkdaşlıq terrorizmə və mütəşəkkil cinayətkarlığa, eləcə də narkotiklərin qanunsuz dövriyyəsinə qarşı birgə mübarizədə müsbət nəticələr verir.

Azərbaycanın Gürcüstandakı səfirliyinin polis attaşe aparatının rəhbəri, polis polkovniki İmran Mustafayev forumda çıxış edərək Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin fəaliyyəti, beynəlxalq əməkdaşlığa verdiyi önəm barədə ətraflı məlumat verib. Bildirib ki, Azərbaycan təkcə Cənubi Qafqazda deyil, bütövlükdə dünyada ictimai-siyasi sabitliyin, sülhün bərqərar olmasında maraqlıdır. Bunun üçün bütün beynəlxalq təşkilatlar və sülhsevər ölkələrlə əməkdaşlığa hazırdır. O, Azərbaycan ilə Gürcüstanın daxili işlər orqanları arasındakı əməkdaşlığı xüsusi qeyd edib. Forum Gürcüstanın Daxili İşlər Nazirliyinin və Avropa İttifaqının birgə təşkilatçılığı ilə keçirilib.

# Ölkə iqtisadiyyatı bu il üçün qarşıya qoyulmuş məqsədlərə nail olmaq əzmindədir

## *Milli Məclisin deputatı Tahir Mirkişilinin yap.org.az-a müsahibəsi*

***- Tahir müəllim, bildiyimiz kimi, noyabrın 30-da Milli Məclis tərəfindən 2019-cu ilin büdcə zərfinə daxil olan sənədlər qəbul olundu. İlk olaraq, gələn ilin dövlət büdcəsinin üstün cəhətləri haqqında fikirlərinizi bilmək istərdik...***



- Başa çatmaqda olan 2018-ci ilin sosial-iqtisadi nəticələri onu deməyə əsas verir ki, ölkə iqtisadiyyatı bu il üçün qarşıya qoyulmuş məqsədlərə nail olmaq əzmindədir. Aparılmış iqitisadi və idarəetmə islahatları nəticəsində ölkədə makro-iqtisadi sabitlik qorunub möhkəmlənmiş, manatın kursu sabit olmuş və kursa olan təhlükələrin böyük əksəriyyəti aradan qaldırılmış, qeyri-neft sektoru inkişaf etmiş, ixracın həcmi və strateji valyuta ehtiyatları artmış, yeni iş yerləri yaradılmışdır.

2018-ci ilin 9 ayının nəticələrinə görə büdcə gəlirlərinin yığılmasının proqnozlarına artıqlaması ilə əməl olunması iqtisadi artımın öz əksini büdcədə də tapmasının bir göstəricisidir. Bütün beynəlxalq təşkilatlar (Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, AYİB) 2019-ci ildə Azərbaycanda ÜDM-in artmasını proqnozlaşdırırlar. Azərbaycan hökuməti də 2019-ci il üçün ÜDM-in 3.6% artmasını planlaşdırması 2019-ci ilin iqtisadi cəhətdən artım və aktiv il olacağı planlaşdırılır. Belə bir şəraitdə 2019-ci il dövlət büdcəsinin də bu iqtisadi reallığa əsaslanması qanuna uyğundur.

Manat ifadəsində 2019-cu ilin dövlət büdcəsi Azərbaycanın ən böyük büdcəsidir. Büdcənin həm gəlir, həm də xərc hissəsində artım planlaşdırılır. 2019-cu ildə aparılacaq əhatəli vergi islahatlarının nəticələri də büdcədə əks olunmuşdur.

***- 2019-cu ilin dövlət büdcəsi həmçinin sosialyönümlü və investisiyayönümlü büdcə kimi səciyyələndirilir. Bu barədə nə deyə bilərsiniz?***

- Prezident İlham Əliyevin güclü sosial siyasəti hər zaman dövlət büdcəsində də əksin tapıb. 2019-cu il büdcə xərclərinin hər 100 manatından 32 manatının sosial xərclərə, 27 manatının isə investisiya xərcləri olması büdcənin bir tərəfdən sosial təminatı, digər tərəfdən isə iqtisadi aktivliyi dəstəkləyəcəyini deməyə imkan verir.

İnflyasiyanın səviyyəsinin 3.8%, əhalinin real gəlirlərinin artımının isə 5.9% proqnozlaşdırılması əhalini maddi rifah halına müsbət təsirin olacağını deməyə imkan verir. Təqaüd və sosial müavinətlərin, qaçqın və məcburi köçkünlərə sosial dəstəyin artırılması, sosial mənzillərin tikintisi üçün əlavə vəsaitin nəzərdə tutulması da ciddi məqamlardır.

***- Gələn ilin büdcə zərfinə daxil olan digər sənədlərin əhəmiyyəti nədən ibarətdir. Əvvəlki illərlə müqayisədə növbəti il üçün nə kimi müsbət yeniliklər var?***

- 2019-cu il büdcəsi ilk dəfə olaraq ölkə Prezidentinin fərmanı ilə təsdiq olunmuş yeni büdcə qaydalarına uyğun hazırlanıb. Bu isə büdcənin icrasının 2019-cu ildə xarici konyukturada baş verən dəyişikliklərdən, xüsusən də neft qiymətlərinin dəyişməsindən az asılı olacağını deməyə imkan verir ki, bu çox mühüm yenilikdir.

***- Ümumiyyətlə, dövlət büdcəsində qeyri-neft sektorunun çəkisi barədə də fikirlərinizi bilmək istərdik...***

- 2019-cu il üçün dövlət büdcəsi gəlirlərinin 40.2%-i qeyri-neft sektoru hesabına formalaşacaq. Ümumilikdə, 2019-cu ildə ÜDM-in 61.6%-i qeyri-neft sektoruna aid olacaq. Növbəti ildən vergi islahatlarının aparılması ölkədə şəvvaflığı artıracaq, qeyri-neft sektorunun daha da inkişafına səbəb olacaqdır. Və nəticə olaraq dövlət büdcəsinin də qeyri-neft sektoru gəlirlərinin gecəkdə daha da artması hədəflənir.

***- Yeri gəlmişkən, hazırda ölkə iqtisadiyyatında qeyri-neft sektorunun artım perspektivlərini necə dəyərləndirirsiniz?***

- Qeyri-neft sektorunu inkişafı ilə bağlı ölkədə geniş miqyaslı işlər görülür. Həm sənaye sahəsində, həm aqrar sektorda, həm də xidmət sektorunda görülən işlər bütövlükdə qeyri-neft sektorunda artımın daha da sürətlənməsini şərtləndirəcək.

Qeyri-neft sektorunun 2019-cu ildə 3.9% artım ilə proqnozlaşdırılması görülən işlərin nəticəsi olaraq proqnozlaşdırılıb. Ölkəmizdə qeyri-neft sektoru potensialı çox böyükdür. Beynəlxalq nəqliyyat dəhlizlərinin Azərbaycandan keçməsi bu potensialı reallaşdırmaq üçün unikal şanslar yaradıb. Sahibkarların bu imkanlardan daha çox yararlanması və ixracın həcminin daha da artırılması üçün dövlət tərəfindən intensiv tədbirlər görülür. Əminəm ki, növbəti ildə biz Azərbaycan iqtisadiyyatının daha dinamik inkişafının şahidi olacağıq.

## Nazir: İran neft hasilatını azaltmaq fikrində deyil

İndiki vəziyyətdə İran neft hasilatını azaltmaq fikrində deyil. AZƏRTAC xəbər verir ki, bu sözləri İranın neft naziri Bijən Namidar Zəngənə OPEK-in iclasında deyib. Bildirib ki, İrana qarşı tətbiq olunmuş iqtisadi sanksiyalar aradan qaldırılmayana qədər İran hasilatı davam etdirəcək və dünya bazarına əvvəlki kimi neft ixrac edəcək. Nazir diqqətə çatdırıb ki, dünya bazarında neftin qiymətinin aşağı düşməsi İranın günahı üzündən baş verməyib. Ona görə də İran başqalarının məsuliyyətini öz üzərinə götürmək istəmir. Bazardakı qiymətləri qeyri-sabit vəziyyətə salan dövlətlər hasilatlarını azaltmalıdırlar.



## Bəhruz Quliyev: "Vahid Əhmədovun fikirləri ictimai rəyi çaşdırmağa yönəlib"

***"Vahid Əhmədovun maliyyə nazirinin manatın dayanıqlığı və sabitliyə əsaslanması barədə fikirlərini təhrif etməsi birbaşa ictimai rəydə çaşqınlıq yaratmağa və dövlətimizin apardığı siyasi-iqtisadi siyasətə süni şəkildə kölgə salmağa hesablanıb".***



SİA-nın məlumatına görə, bu fikirləri olaylar.az-a "SƏS" qəzetinin Baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev deputat Vahid Əhmədovun manatın növbəti devalvasiyaya uğrayacağı, guya ölkədə maliyyə problemlərinin yaşanacağı barədə verdiyi bədbin "proqnozlarına" münasibətini açıqlayarkən deyib.

Bəhruz Quliyevin sözlərinə görə, Azərbaycan manatının dayanıqlığı kifayət qədər möhkəm əsaslara söykənir və dövlətimiz siyasi-iqtisadi siyasətində bu məsələni daim prioritet istiqamət kimi götürür: "Qəbul edilən və həyata keçirilən Dövlət Proqramları, əhalinin sosial-məişət həyatının daha yaxşı təmin olunması istiqamətində görülən davamlı işlər, regionlarımızın inkişafı, eləcə də digər sahələrdə əldə edilən hər bir nailiyyətin arxasında dayanan əsas faktor məhz siyasi-iqtisadi siyasətin uğurlu təməl prinsipləri dayanmaqdadır. Bu baxımdan, Vahid Əhmədovun xalq arasında süni gərginlik yaratmaq cəhdləri mən deyərdim ki, birbaşa təxribatçılıq məqsədi daşıyır. Onun dövlətin apardığı məqsədyönlü siyasətinə qarşı çıxışları da belə nəticəyə gəlməyə əsas verir ki, o, öz qaranlıq siyasi keçmişini unutmayıb".

"Görünür, bu şəxs öz deputatlıq mandatından sui-istifadə edərək, açıq-aşkar dövlətimizin siyasəti əleyhinə fikirlər səsləndirməklə radikal müxalifətçilik dövrləri üçün darıxdığını nümayiş etdirir", deyən siyasi ekspert xatırladıb ki, bir neçə il öncə baş vermiş Quba iğtişaşları zamanında da Vahid Əhmədov xalqı qızışdırıcılığa meyilli ifadələri ilə qeyri-sabitliyə çağırıb: "Bütün bunlar isə onun ənənəvi və qaragüruhçu müxalifət sindromlarının yenidən oyanması ilə əlaqələndirilə bilər. Çünki onun bəlli keçmişi hər kəsə məlumdur. Bu gün Vahid Əhmədovun dövlətin müəyyənləşdirdiyi siyasi-iqtisadi kursa qarşı qeyri-real, əsaslandırılmamış rəyləri əslində onun barəsində formalaşmış fikri kifayət qədər sübuta yetirmiş olur".

Baş redaktor son olaraq bildirib ki, Vahid Əhmədov kimilərinin nə demələrindən, hansı saxta, sifarişli "proqnozlarla" çıxış etməsindən asılı olmayaraq, ictimai rəy həmin fikirlərə ciddi yanaşmır və dövlətinin apardığı məqsədyönlü siyasi-iqtisadi siyasəti dəstəkləyir.

## "Bəzi iqtisadçıların fikirləri milli valyutaya inamsızlıq formalaşdırmağa yönəlib"

***Maliyyə naziri Samir Şərifovun dövlət televiziyasına müsahibəsi zamanı manatın möhkəmlənməsi ilə bağlı səsləndirdiyi fikirlərin bəzi ekspertlər tərəfindən təhrif edilməsinə münasibət bildirən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin və YAP Siyasi Şurasının üzvü Aydın Hüseynov deyib ki, nazir çıxışı zamanı manatın məzənnəsinin kəskin, ifrat möhkəmlənməsinin daxili istehsalçıların fəaliyyətinə mənfi təsir göstərdiyini, idxal üçün cəlbedici vəziyyət yaratdığını bildirib.***



Onun sözlərinə görə, bu da Azərbaycan dövlətinin iqtisadi prioritetlərinə uyğun deyil. Nazir qeyd edib ki, neft daxilolmalarının artıqlığı zamanı onların daha çox istifadəsi manatın məzənnəsinin daha da möhkəmlənməsinə təzyiq yaradır. Bu isə ixraca mənfi təsir edir, idxalın isə artmasına səbəb olur.

Aydın Hüseynov bildirib ki, respublikamızda neftdənkənar iqtisadiyyatın inkişafı həyata keçirilən siyasi kursun mühüm prioritetlərindən biridir. "Ölkəmizdə aparılan islahatlar çərçivəsində, həmçinin qeyri-neft məhsullarının ixracının genişləndirilməsini hədəfləyən müvafiq tədbirlər həyata keçirilir. Beynəlxalq təcrübə əsas götürülməklə ixracın səmərəli təşviq mexanizmi işə salınıb. Belə ki, respublikamızda ixracın stimullaşdırılması ilə bağlı imzalanan sənədlərə uyğun olaraq, "İxrac təşviqinin ödənilməsi qaydası", "İxrac təşviqi şamil olunacaq məhsulların siyahısı" və "İxrac təşviqi üzrə tətbiq olunacaq əmsallar" təsdiq edilib. Eyni zamanda, "Made in Azerbaijan" brendi xarici ölkələrdə uğurla təbliğ olunur. Bütün bunlar ixracın stimullaşdırılması baxımından böyük önəm daşıyır və Azərbaycan dövləti ixracın artırılmasında, ölkə məhsullarının dünya bazarlarında yerinin möhkəmlənməsində maraqlıdır", - deyə qeyd edən millət vəkili nazir S.Şərifovun fikirlərinin bəzi ekspertlər tərəfindən qeyri-adekvat şəkildə şərh olunmasını ölkədə maliyyə gərginliyi yaratmaq cəhdi kimi dəyərləndirib.

YAP rəsmisi bildirib ki, milli valyutaların məzənnə dəyişikliyi bir sıra amillərlə şərtlənir ki, bu amillər sırasında iqtisadiyyatın durumu, monetar siyasətlə bağlı dövlətin siyasi iradəsi və bir sıra digər amillərlə yanaşı büdcə siyasəti də önəmli rola malikdir. "Azərbaycanın gələn il üçün büdcə layihəsi kifayət qədər praqmatik hazırlanıb və bütün iqtisadi risklər nəzərə alınıb. Qeyri-neft sektorunun sürətli inkişafı və bu sahə hesabına ixracın artması, ölkəyə ötən illərlə müqayisədə daha çox xarici valyuta axınını təmin edir. Bundan başqa, neftin qiymətinin proqnozlaşdırılan həddə yaxın olması da Azərbaycanın gəlirlərinin sabit olmasına şərait yaradır. Milli iqtisadiyyatımızın real göstəricilərinə, həmçinin ölkədə aparılan monetar siyasətin mahiyyətinə istinad edərək demək mümkündür ki, hazırkı şəraitdə manatın kursunun dəyişəcəyi gözlənilmir və buna iqtisadi əsaslar da yoxdur", - deyə Aydın Hüseynov bildirib. Milli Məclisin deputatı bir daha vurğulayıb ki, bəzi iqtisadçılar həqiqətdən uzaq, heç bir real iqtisadi əsası olmayan iddialarla ictimai rəyi manipulyasiya etməyə çalışırlar. O, qeyd edib ki, bu kimi fikirlər milli valyutaya inamsızlıq formalaşdırmağa yönəlib: "Vahid Əhmədov kimi təcrübəli iqtisadçının da fikirlərinin bu sırada olması təəssüfvericidir. Vahid müəllim əvvəllər də bu cür reallığı əks etdirməyən açıqlamalar verib və onun bu kimi proqnozları özünü doğrultmayıb. Bu gün müzakirə olunan fikirlərinin də heç bir reallıqlağa söykənmədiyini söyləmək olar".

# Tarixdə 100 illik yubileylərlə yadda qalan 2018-ci il

***Artıq 2018-ci ilin son ayını yaşamaqdayıq. Hər ötən il ayrı-ayrı fikirlərdə fərqli şəkildə yadda qalır desək, yanılmarıq. Lakin bu ilin ötən müddəti ərzində baş verən hadisələrə nəzər salsaq, cari ilin Azərbaycan tarixində mühüm izlər buraxdığını açıq şəkildə görərik. 2018-ci ildə Azərbaycan bütün sahələrdə əldə etdiyi nailiyyətlərlə yanaşı, 100 il bundan öncəki dövrə yenidən baxış edərək tarixin səhifələrinə mühüm məqamları yazdı. Cari ildə ölkəmizdə 100 illiklərlə bağlı keçirilən möhtəşəm tədbirlər, atılan addımlar bunu deməyə əsas verir.***

2018-ci ilin tarixi il kimi yadda qalması ilə bağlı ilk addım Azərbaycan Prezident İlham Əliyev tərəfindən bu ilin yanvarın 10-da imzalanan "2018-ci ilin Azərbaycan Respublikasında "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilməsi haqqında Sərəncam oldu. Sərəncamda Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümünün dövlət səviyyəsində layiqincə qeyd edilməsi məqsədilə Nazirlər Kabinetinə müvafiq tədbirlər planının hazırlanıb həyata keçirilməsi tapşırılmaqla yanaşı, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100-cü ildönümü ilə əlaqədar ölkədə və ölkə xaricində silsilə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdu.

Sərəncamdan irəli gələn məsələləri icrası ilə əlaqədar olaraq, AXC-nin 100 illiyi ilə bağlı həm Azərbaycanda, həm də ölkə xaricində yüksək səviyyəli tədbirlər keçirilib, bu tarixin Müasir Azərbaycan üçün önəmi daim önə çəkilib.




## AXC - 100

100 illik tarixə malik olan Azərbaycan Xalq Cümhuriyyəti - 1991-ci ildə öz müstəqilliyini bərpa edən müasir Azərbaycan Respublikası 1918-1920-ci illərdə 23 ay ərzində mövcud olan və müsəlman Şərqində ilk dünyəvi, demokratik dövlət kimi tarixə düşən Azərbaycan Xalq Cümhuriyyətinin siyasi varisidir.



Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın qədim dövlətçilik ənənələrini yaşadaraq, həmin dövr üçün mütərəqqi hesab edilən dövlət təsisatlarının yaradılmasına nail olmuşdur. Gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə fəaliyyət göstərmiş Azərbaycan Xalq Cümhuriyyətinin demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, hərbi quruculuq və sair sahələrdə həyata keçirdiyi işlər Azərbaycan xalqının tarixinin parlaq səhifəsidir. İstiqlal Bəyannaməsinin elan edildiyi 1918-ci ilin 28 may tarixi hazırda dövlət müstəqilliyinin bərpa edilməsi günü - Respublika Günü kimi qeyd edilir.

Cari ilin mayın 28-də Heydər Əliyev Mərkəzində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə rəsmi qəbul da təşkil olunub.

## Azərbaycan Parlamenti - 100

Cari ildə 100 illik yubileylər sırasına Azərbaycan Parlamenti də daxil olub. 1918-ci il may ayının 28-də Zaqafqaziya seymində Müsəlman fraksiyası özünü Azərbay-



can Milli Şurası elan edib. Bununla da Azərbaycanın ilk Parlamenti yarandı və ilk parlamentli respublikanın əsası qoyulub. İlk Parlamentimiz ölkənin idarə olunmasını öz üzərinə götürüb və tarixi istiqlal bəyannaməsini qəbul edib. Şərəfli tarixə malik olan Azərbaycan Parlamenti öz 100 yaşını bu ilin sentyabrın 21-də Milli Məclisdə beynəlxalq səviyyədə qeyd etdi. Prezident İlham Əliyevin də iştirak etdiyi yüksək səviyyəli mərasimdə 150 ölkənin parlamentinin nümayəndə heyəti iştirak edib.

Təntənəli iclasa ATƏT Parlament Assambleyasının, Türkdilli Ölkələrin Parlament Assambleyasının (Türk PA), Qaradəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasının (QDİƏT PA), Müstəqil Dövlətlər Birliyinin Parlament Assambleyasının (MDB PA), Avropa Parlamenti, GUAM (Gürcüstan-Ukrayna-Azərbaycan-Moldova) Parlament Assambleyasının nümayəndələri də qatılıb.

## Azərbaycan Ədliyyəsinin 100 illik yubileyi

Prezident İlham Əliyevin Sərəncamı ilə 2018-ci ildə 100 illik yubileyi təntənəli şəkildə qeyd olunan sahələrdən biri Azərbaycan ədliyyəsi oldu. Bir əsr inkişaf yolu ke-



# Tarixdə 100 illik yubileylərlə yadda qalan 2018-ci il

çən Azərbaycan ədliyyəsinin şanlı tarixi 1918-ci il may ayının 28-də Azərbaycan Xalq Cümhuriyyətinin elan edildiyi gündə Ədliyyə Nazirliyinin təsis edilməsi ilə başlayıb. 1918-ci ilin noyabr ayının 22-də isə Ədliyyə Nazirliyinin funksiyalarını, fəaliyyət istiqamətlərini və səlahiyyətlərini müəyyən edən mühüm akt-nazirliyin Əsasnaməsi təsdiq olunub. Beləliklə, Azərbaycan Xalq Cümhuriyyətinin qoyduğu təməl əsasında müasir dövlətçilik ənənələrinə və konsepsiyasına söykənən Azərbaycan ədliyyəsinin tarixi yazılmağa başlandı. Azərbaycan ədliyyəsinin yenidən və əsaslı surətdə formalaşdırılması və inkişafı Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər Heydər Əliyevin siyasi xəttini uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan ədliyyəsinin inkişafı yolunda yeni nailiyyətlər əldə edilmiş, həyata keçirilən ardıcıl və məqsədyönlü islahatlar nəticəsində nazirliyin cəmiyyətin idarə olunmasında yeri və rolu daha da artmış, nüfuzu və mövqeyi möhkəmlənib.

## 100 yaşlı Azərbaycan Ordusu

1918-ci ilin iyunun 26-da yaradılan Azərbaycanın milli ordusu da bu il 100 yaşını qeyd etməklə, nə qədər güclü olduğunu dünyaya sübut etmiş oldu. 100 il əvvəl yaradılan Azərbaycan Silahlı Qüvvələri əminliklə söyləmək olar



ki, bu gün ən güclü dövrünü yaşayır. Təməli Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş və Ali Baş Komandan İlham Əliyevin davam etdirdiyi müasir ordu quruculuğu sayəsində bu gün Azərbaycan Silahlı Qüvvələri dünyanın ən güclü 50 ordusu sırasında dayanır, regionda isə ən güclü ordudur. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda bir çox sahələrdə aparılan islahatlar ordu quruculuğundan da yan ötməyib. Belə ki, ölkənin müdafiəsinin təşkil edilməsi üçün Azərbaycan Ordusunun döyüşə hazırlığı sahəsində müvafiq tədbirlər görülüb, qoşunlar müasir döyüşün aparılması tələblərinə cavab verən silah, hərbi texnika və digər vasitələrlə hərtərəfli təmin olunub. Ordumuzun 100 illiyi olaraq cari ilin iyunun 26-da Bakının Azadlıq meydanında keçirilən təntənəli hərbi paradla yadda qaldı.

## Azərbaycan Polisi - 100 il

Azərbaycan Polisi 2018-ci ilin 2 iyul tarixində peşə bayramı ilə yanaşı, yaranmasının 100 illik yubileyini də qeyd etdi. 1918-ci il iyulun 2-də Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə yaradılan Azərbaycan polisi dövlətçiliyin qorunmasında əsas dövlət təsisatıdır. Ulu öndər Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi dövrlərdə daxili işlər orqanlarının fəaliyyətinin təşkili, peşəkar kadr özəyinin yaradılması, son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə isə hüquq mühafizə, o cümlədən daxili işlər orqanlarında bir sıra islahatlar, struktur dəyişiklikləri, maddi-



texniki bazanın möhkəmləndirilməsi, iş şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılıb. Qeyd edək ki, Ulu Öndər Heydər Əliyevin 1998-ci il 24 may tarixli fərmanı ilə hər il iyulun 2-si Azərbaycanda Polis Günü kimi qeyd olunur.

## Bakının işğaldan azad edilməsindən 100 il ötür

Sentyabrın 15-də Azərbaycan paytaxtında təntənəli yubiley mərasimi-hərbi parad keçirildi. Türkiyə və Azərbaycan Bakının yadelli qüvvələrdən azad edilməsinin 100 illiyini birgə qeyd etdi. 100 il öncə Azərbaycan Milli Or-



dusu və Nuru Paşanın komandanlıq etdiyi Qafqaz İslam Ordusu ağır döyüşlərdən sonra Bakı şəhərini erməni daşnak və bolşevik qüvvələrinin əsarətindən azad etdi. Bu hadisə keçən əsrin ikinci onilliyində baş verdi. O zaman dünya qarışıq idi. Birinci dünya müharibəsi gedirdi. O müharibədə Osmanlı imperiyası məğlublar sırasında idi. Buna baxmayaraq, İstanbul hərbi yardım əlini qardaş Azərbaycana uzatdı. Qısa müddətdə minlərlə şəhid verməklə Qafqaz İslam Ordusu Bakını işğalçılardan təmizlədi.

## 100 illik tarixə malik olan Üçrəngli bayrağımız

2018-ci ildə müstəqil dövlətimizin qürur mənbəyi olan üçrəngli bayrağımızın qəbul olunmasından da 100 il ötür. 1918-ci ilin noyabrın 9-da Fətəli xan Xoyskinin hesabatı əsasında Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı haqqında qərar qəbul edilib. 23 aydan sonra - aprelin 28-də mil-



li bayrağımız sovet bayrağı ilə əvəz edildi. Ancaq 70 ildən sonra üçrəngli bayrağımız yenidən Ulu öndər Heydər Əliyev tərəfindən Naxçıvanda qəbul olundu. Baxmayaraq ki, o zaman SSRİ tam süqut etməmişdi, amma Ümummilli lider Heydər Əliyev sovet siyasi sistemindən imtina edərək üçrəngli bayrağımızı qəbul etdi. 2009-cu ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə 9 noyabr Dövlət Bayrağı Günü kimi qəbul olundu".

## Avtomobil yolları təsərrüfatının yaradılmasının 100 illiyi

2018-ci ildə Avtomobil yolları təsərrüfatının yaradılmasının da 100 illiyi geniş şəkildə qeyd edildi. 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin elan olunması yol təsərrüfatında yeni mərhələ kimi xarakterizə oluna bilər. Azərbaycan Xalq Cümhuriyyəti dövründə yol təsərrüfatının inkişafı ilə bağlı əsaslı tədbirlər görülüb, avtomobil yollarının sayı artıb, yol tikintisində yeni metodlar tətbiq olunub. Yol təsərrüfatında daha ciddi uğurların əldə olunması isə Ulu öndər Heydər Əliyevin 1969-cu ildə respublika rəhbərliyinə gəlməsindən sonraya təsadüf edir. Yol təsərrüfatında görülən işlər müstəqilliyimizi yenidən qazandıqdan sonra da davam etdirildi. Ümummilli lider Heydər Əliyev "Tarixi İpək yolu"nun bərpası ideyasını xəyaldan reallığa çevirdi. Bu nəhəng layihənin gerçəkləşdirilməsi nəticəsində ölkəmizin geostrateji və geosiyasi əhəmiyyəti daha da artdı, Azərbaycan Şərqlə-Qərb arasında strateji körpü rolunu oynayan əlverişli




tranzit məkanına çevrildi. Ölkədə yol infrastrukturunun daha da təkmilləşdirilməsi, mövcud yolların yenidən qurulması Prezident İlham Əliyevin iqtisadi siyasətində də diqqət mərkəzində saxlanıldı. Son 15 ildə ölkə üzrə 15 min kilometr uzunluğunda yol çəkilib. Təkcə bu ilin 9 ayında 30-a yaxın rayonda və paytaxtda təqribən 1 milyon nəfər əhalinin yaşadığı 500-dən çox yaşayış məntəqəsini əhatə edən layihələr üzrə tikinti və yenidənqurma işləri başa çatdırılıb.

**Nailə Məhərrəmova**

# Azərbaycana gələn turistlərin sayı ilbəil artır



***Ümummilli Lider Heydər Əliyevin qurucusu olduğu müasir Azərbaycan Respublikası müstəqilliyini bərpa etdiyi 27 il ərzində böyük inkişaf yolu keçib. Mövcud potensialı ilə seçilən Azərbaycan dünyanın aparıcı və inkişafda olan ölkələri sırasında yer qazanıb. Həyata keçirilən milli strategiya, yürüdülən ictimai-siyasi və mədəni mövqe, məhz belə yüksək imicin Azərbaycan ətrafında yaranmasına səbəb olub.***

Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu və Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilən sosial-iqtisadi inkişaf strategiyası Azərbaycan iqtisadiyyatının bütün sahələrini əhatə edir. Azərbaycanın yüksək iqtisadi-sosial uğurlarından və əldə edilən nailiyyətlərindən danışarkən, son illərdə müasir tələblərə cavab verən turizm sahəsinin formalaşdırılması və onun ölkə iqtisadiyyatının əsas inkişaf dayaqlarından birinə çevrilməsinin təmin edilməsi istiqamətində əldə olunan irəliləyişləri də qeyd etməliyik. Ölkənin yeraltı-yerüstü sərvətləri, mövcud iqlimin olması Azərbaycanda turizm üçün lazımi şəraitin olduğunu göstərir. Bu gün Azərbaycan saysız turistləri qarşılamaq və lazımi səviyyədə yerləşdirmək imkanına malik olan turist ölkəsidir. Müasir dövrümüzdə Azərbaycanda fəaliyyət göstərən turizm şirkətləri və hotellər dünya standartlarına uyğun qurulub, yeni turizm zonaları yaradılıb. Müasir dövrümüzdə turizmin inkişafını vurğularkən, ölkəmizdə dünya standartlarına cavab verən beşulduzlu və dördulduzlu mehmanxanaların olmasını da qeyd etməliyik. Bu otellərin, qısa bir zamanda, istifadəyə verilməsi dünyada analoqu olmayan bir hadisədir. Son illərdə Bakıda brend şəbəkələrə aid bir neçə beşulduzlu hotelin açılması Azərbaycanda turizmin inkişafına göstərilən diqqətin bir nümunəsidir. “Four Seasons”, “Fairmont”, “Mariott”, “Jumeirah” kimi dünyanın aparıcı hotel brendi Bakıdadır. Belə brendlərə yalnız dünyanın ən inkişaf etmiş şəhərlərində təsadüf olunur. Əlbəttə ki, bu və ya digər göstəricilər ölkəmizin dinamik inkişafının göstəricisidir.









Paytaxtımızla yanaşı, hazırda bölgələrdə ən müasir səviyyədə hotellər inşa olunub. Şimal-qərb zonasında - Şamaxıda, Qəbələdə, Şəkidə, Qubada və başqa məkanlarda müasir tələblərə cavab verən otellər inşa edilib. Bütün bunlar Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə, ölkə həyatının digər sahələri kimi, turizm sektoruna da ayırdığı diqqətin nəticəsidir. Bəli, əminliklə vurğulayaq ki, ölkəmizdə turizmin inkişafı üçün bütün imkanlar vardır. Gözəl təbiəti, gözəl havası olmaqla yanaşı, ölkəmizdə sabitlik və təhlükəsizlik hökm sürür. Azərbaycanda yol, nəqliyyat və digər infrastrukturun müasirləşdirilməsi turizmin inkişafına yol açıb. Görülən işlər, bizə deməyə əsas verir ki, Azərbaycan bənzərsiz turizm imkanları ilə dünyanın diqqət mərkəzində hər zaman olacaqdır. Elə son dövrdə Azərbaycana üz tutan turistlərin sayında müşahidə olunan artım bunu deməyə əsas verir.

Prezident İlham Əliyev “Bakutel-2018” sərgisi ilə tanış olarkən, rusiyalı jurnalistin Ona ünvanladığı :”Axı Siz turizmi inkişaf etdirmək niyyətindəsiniz. Bildiyimə görə, indi ən çox turist Rusiyadandır. Doğrudur?” sualını cavablandıraraq bildirib ki, ölkəmizə rusiyalı turistlər daha çox üz tuturlar: “Bəli, birinci yerdə Rusiyadan gələn turistlərdir. İl hələ ki, yekunlaşmayıb, amma 800 mindən çox rusiyalı gəlib. Rusiyalılar inamla birinci yeri qoruyub- saxlayırlar. Bizdə son iki ildə turizmin artımı müşahidə edilib. 2016-cı ildə 22 faiz, 2017-ci ildə 20 faiz artım olub, bu il hələ ki, bilmirik, amma yenə də artım var. Turistləri, ilk növbədə, burada özlərini təhlükəsiz hiss etdikləri şərait diqqəti cəlb edir. Rusiyalılara gəlincə, düşünürəm ki, onlar özlərini evdəki kimi hiss edirlər. Burada dil səddi yoxdur, onlara münasibət çox yaxşıdır. Bizim ortaq tariximiz də mühüm rol oynayır”.

Bəli, turistlərin məhz bu gün Azərbaycanı seçməsinin bir çox səbəbləri var. Son illər Azərbaycanda müasir infrastruktur yaradılmışdır. Dünyanın, demək olar ki, aparıcı sıralarında olan, dünya standartlarına cavab verən otellərin tikilməsi, müasir yol infrastrukturu, müalicəvi turizmin inkişaf etdirilməsi turistləri bu məkana daha çox cəlb edir. Başlıcası isə Prezident İlham Əliyevin vurğuladığı kimi, təhlükəsizliyin, sabitliyin hökm sürməsidir. Multikultural, tolerant bir dövlət kimi tanınan Azərbaycan dünya xalqlarının nümayəndəsinə hörmətlə yanaşır.

***ZÜMRÜD***

## Səttar Möhbalıyev növbəti müddətə Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının vitse-prezidenti seçilib



Dekabrın 2-7-də Danimarkanın paytaxtı Kopenhagendə Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının (BHİK) IV qurultayı keçirilib. Qurultayın son günü BHİK-in rəhbər orqanlarına seçkilər keçirilib. Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasından AZƏRTAC-a bildiriblər ki, qurultayda iştirak edən Azərbaycan həmkarlar ittifaqlarının nümayəndə heyətinin rəhbəri, AHİK-in sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev növbəti müddətə Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyasının vitse-prezidenti seçilib. Qeyd edək ki, qurultayın gedişində Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun ingilis dilində çap olunan “Azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırımı siyasətinin mərhələləri” kitabı Azərbaycan nümayəndə heyətinin üzvləri tərəfindən iştirakçılara paylanıb.

## Qida Təhlükəsizliyi Agentliyi quş qripi ilə əlaqədar xəbərdarlıq edir




Azərbaycan Respublikası ərazisinin başqa ölkələrdən keçə biləcək yoluxucu heyvan xəstəliklərindən qorunması məqsədilə Qida Təhlükəsizliyi Agentliyi (AQTA) əhaliyə xəbərdarlıq edib. Agentliyin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, xəbərdarlıqda deyilir: “Ümumdünya Heyvan Sağlamlığı Təşkilatı tərəfindən İran İslam Respublikasının Tehran vilayətində ev quşları arasında yüksək patogenli quş qripi xəstəliyinin yayılması müəyyən edilib. Bununla əlaqədar olaraq, Tehran vilayətindən diri quş və quşçuluq məhsullarının idxalına müvəqqəti məhdudiyyət qoyulması qərara alınıb. Eyni zamanda, nəzarət tədbirlərinin gücləndirilməsi üçün Qida Təhlükəsizliyi Agentliyi tərəfindən İran İslam Respublikasının Tehran vilayətindən gələn və ya həmin ərazidən tranzit keçən nəqliyyat vasitələrinin gömrük keçid məntəqələrində dezinfeksiya edilməsi ilə bağlı Dövlət Gömrük Komitəsinə aidiyyəti üzrə müraciət olunub”.

## Gənclər və idman naziri Biləsuvarda vətəndaşları qəbul edib



Azərbaycan Respublikasının gənclər və idman naziri Azad Rəhimov dekabrın 7-də Biləsuvarda vətəndaşları qəbul edib. Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Gənclər evində keçirilən qəbulda Ağcabədi, Beyləqan, Biləsuvar və İmişli rayonlarından 30-a yaxın vətəndaşın gənclər, idman və digər sahələrlə bağlı müraciətləri dinlənilib.

Gənclər sahəsi üzrə müraciətlər qeyri-hökumət gənclər təşkilatlarının yaradılmasına dəstək göstərilməsi, gənclərlə bağlı müxtəlif layihələrin maliyyələşdirilməsi, gənclərin beynəlxalq layihələrdə iştirakı, yay-qış istirahət düşərgələrinin sayının artırılması, Gənclər mərkəzlərinin müvafiq avadanlıqla təmin edilməsi, fəaliyyəti və s. məsələləri əhatə edib.

İdman sahəsi üzrə müraciətlər isə fəxri adların verilməsi, idman mərkəzlərinin lazımi avadanlıqla təminatı, yeni Olimpiya İdman komplekslərinin, idman mərkəzlərinin tikintisi və s. məsələlərlə bağlı olub. Müraciətlərin bir qismi yerindəcə həllini tapıb. Araşdırılması tələb edilən məsələlər isə aidiyyəti qurumlara göndərilməsi üçün nəzarətə götürülüb.

# Ulu Öndər Heydər Əliyev hər birimizin qəlbində yaşayır və yaşayacaq!

***“Ulu Öndər Heydər Əliyev cismən aramızda olmasa da, Onun bizlərə qoyduğu əbədiyaşar ideyaları yaşayır və yaşadılır. Belə ki, Ulu Öndər Heydər Əliyev dühası hər bir inkişaf və tərəqqi faktorunda öz əbədi varlığını isbatlamaqdadır. Bu gün öz Vətənini, xalqını, dövlətini sevən hər bir Azərbaycan vətəndaşının qəlbinin ən dərin guşəsində Dahi Öndər Heydər Əliyev abidəsi ucaldılıb. Nə qədər Azərbaycan xalqı, Azərbaycan dövləti varsa, Heydər Əliyev də yaşayacaq”. Bu fikirlərlə Yeni Azərbaycan Partiyasının rayon təşkilatlarının və qadınlar şurasının sədrləri qəzetimizə öz ürək sözlərini açıqlayarkən bildiriblər.***

## YAP Xızı rayon təşkilatının sədri Fərrux Haqverdiyev:



- Müasir və müstəqil Azərbaycan dövlətinin hazırkı inkişaf mərhələsinə çatmasında bir çox amillərin müstəsna rol oynaması sirr deyil. Bu sırada şəxsiyyət-lider amili mühüm yer tutur. Şübhəsiz ki, Azərbaycan xalqı və dövlətinin tarixin səhnəsində özünəməxsus yer tutmasını, müstəqilliyini əldə edərək qoruyub-saxlamasını təmin edən xalqımızın Ümummilli Lideri Heydər Əliyevdir. Həm keçmiş SSRİ, həm də müstəqillik dövründə Ulu Öndərimiz, çoxşaxəli fəaliyyəti ilə, yalnız Azərbaycan xalqının tərəqqisi və inkişafına yorulmadan, əzmlə və qətiyyətlə xidmət edib. Azərbaycan, məhz Onun rəhbərliyi ilə inkişaf edərək tərəqqi yoluna çıxıb, bütün sahələrdə mühüm uğurlar, parlaq nəticələr əldə edilib.

Dahi Öndər Heydər Əliyev şəxsiyyətinin xalqımızın həyatında, müstəqil dövlətçilik tariximizdə misilsiz yeri və rolu haqqında bəhs edərkən, Ulu Öndərimizin siyasi fəaliyyətinin müxtəlif dövrlərinə nəzər salmaq lazımdır. Əvvəla, qeyd etmək lazımdır ki, Onun hakimiyyətinin birinci dövrünü əhatə edən 1969-1982-ci illər ərzində görülən işlər və həyata keçirilən tədbirlər nəticəsində əldə edilən çoxsaylı nailiyyətlər respublikamız üçün tarixi əhəmiyyətə malikdir. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il iyul plenumunda Ulu Öndər Heydər Əliyevin Mərkəzi Komitənin birinci katibi seçilərək respublikanın rəhbəri olmasından sonra bütün sahələrdə həyata keçirilən islahatlar respublikamızın inkişafını təmin etdi.

Müstəqillik dövründə, daha dəqiq desək, ikinci dəfə əldə edilən müstəqilliyimizin itirilmə təhlükəsi yarandığı bir zamanda, Ulu Öndər Heydər Əliyevin çoxşaxəli və yorulmaz fəaliyyəti, misilsiz xidmətləri sayəsində Azərbaycanın inkişafı təmin olundu, müasir və qüdrətli Azərbaycan inşa edildi.

Xüsusi amillərdən biri də Yeni Azərbaycan Partiyasının Naxçıvanda təsis edilməsi və bu partiyanın qısa müddət ərzində, xalqın dəstəyi ilə hakimiyyətə gəlməsidir. Bütün bu reallıqlar, bütün bu gerçəkliklər bugünkü güclü və qüdrətli Azərbaycanın inkişafıdır. Məhz Ümummilli Liderimiz Heydər Əliyev 1993-cü ildə xalqın israrlı tələbi ilə yenidən hakimiyyətə gəldikdən sonra sabitlik və təhlükəsizlik təmin edildi, bütün sahələrdə böhran və tənəzzülün qarşısı alındı, ölkə tərəqqi yoluna qədəm qoydu. Əbəs deyil ki, bugünkü müasir və müstəqil Azərbaycan, məhz Ulu Öndər Heydər Əliyevin şah əsəri olaraq dəyərləndirilməkdədir. Bu gün, məhz Onun əbədi ideyaları ölkəmizin davamlı tərəqqisinə öz töhfələrini verməkdədir. Ölkə başçımız, partiyamızın Sədri İlham Əliyev bu ideyaları Azərbaycan xalqı ilə birgə gerçəkləşdirir və həyata keçirir. Bu baxımdan, Ulu Öndər Heydər Əliyev ölməz və əbədiyaşar lider olaraq hər birimizin qəlbində yaşamaqdadır.

## YAP Nərimanov rayon təşkilatının qadınlar şurasının sədri Məhəbbət İbrahimova:



- Hər bir kəs, ilk növbədə, öz xalqı və vətəni ilə tanınır. Elə nadir insanlar da var ki, onlar mənsub olduqları xalqı, vətəni tanıdır və şöhrətləndirirlər. Belə insanlar seçilmiş şəxsiyyətlərdəndir. Ümummilli Liderimiz Heydər Əliyev məhz belə şəxsiyyətlərdəndir. Görkəmli dövlət xadimi, dünya miqyaslı siyasətçi, Azərbaycan milli dövlətçiliyini bütün təhlükələrdən xilas edib qoruyan və inkişaf etdirən qüdrətli şəxsiyyət kimi Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyəti müasir tariximizin ən mühüm və şərəfli mərhələsini təşkil edir. Təsadüfi deyildir ki, Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illər tariximizin qızıl dövrü kimi yaddaşlara həkk olunub. Gördüyü cahanşümul işlərin nəticəsidir ki, bu gün yüksək ehtiram hissi ilə Onun əziz xatirəsi yad edilir. Ümummilli Liderin zəngin ictimai-siyasi fəaliyyətinin hərtərəfli öyrənilməsi və təbliği məqsədilə bütün bölgələrdə, idarə və müəssisələrdə, təhsil ocaqlarında yığıncaqlar, konfranslar və digər kütləvi tədbirlər keçirilir.

Bu günün müasir və müstəqil Azərbaycanı Ulu Öndər Heydər Əliyevin şah əsəridir. Çünki çətin və məşəqqətli dövrlərdə yeganə nicat yolunu Dahi Öndər Heydər Əliyevin qayıdışında görən Azərbaycan xalqı Onu təkidlə hakimiyyətə çağırırdı, amma şəxsi ambisiyaların milli maraqlardan üstün tutan hakimiyyət hərisləri bütün gücləri ilə buna mane olur və silahlı dəstələr yaradırdılar. Məhz ölkəmizin müstəqilliyinin və ərazi bütövlüyünün ciddi təhlükə qarşısında qaldığı anda Heydər Əliyevə müraciət edən xalqımız inanırdı ki, Azərbaycanı düşdüyü bu ağır vəziyyətdən, sosial-iqtisadi, hərbi-siyasi böhrandan yalnız Ulu Öndər Heydər Əliyev xilas edə bilər. Dahi Öndər Heydər Əliyev xilaskarlıq missiyasından çıxış edərək, ikinci dəfə hakimiyyətə qayıtdı və qətiyyətlə, inamla bəyan etdi: “Azərbaycan dövlətinin müstəqilliyi əbədi olacaqdır, sarsılmaz olacaqdır, dönməz olacaqdır və Azərbaycanın bugünkü gənc nəsli gələcək Azərbaycanı daha da yüksəklərə qaldıracaqdır”.

Ulu Öndərimiz həmçinin, Naxçıvanda Yeni Azərbaycan Partiyasının təsisçisi olaraq, tarixi faktorlara imza atdı. Xalqımız bu tarixi heç vaxt unutmayacaq və əbəs deyil ki, bu tarix qəlbərdə yaşayır və yaşadılır. Çünki ən çətin vəziyyətlərdə bu inam və xalqına arxalanmaq Heydər Əliyevə dözüm, iradə verib, bütün uğurlarını təmin edib. Elə “Xalq - Heydər, Heydər - Xalq” birliyi də belə yaranıb.

Bu gün hər bir azərbaycanlı fərəh hissi keçirir ki, dövlətimizin idarəçilik sükanı başında Ulu Öndər Heydər Əliyevin yetirməsi, Onun yaratdığı siyasi məktəbin davamçısı, partiyamızın Sədri, Möhtərəm Prezidentimiz İlham Əliyev durur. Hər bir azərbaycanlının Prezidenti olacağını qətiyyətlə bildirən və ötən müddət ərzində sözünün, vədinin sahibi olduğunu əməli işi, genişmiqyaslı fəaliyyəti ilə bir daha sübut edən ölkə başçısı İlham Əliyevlə xalqımız yeni-yeni müvəffəqiyyətlərə, uğurlara nail olacaq, dövlətçiliyimizin inkişafı və möhkəmləndirilməsi istiqamətində mühüm göstəricilər əldə edəcəkdir.

## YAP Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev:



- Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin müstəqil və müasir Azərbaycanın qurucusu olaraq adlandırılması, bilavasitə Onun xalqımız üçün gördüyü nəhəng işlərə söykənən həqiqət və reallıqdır. Bizlər bu gün Ulu Öndər Heydər Əliyevin müdrik və uzaqgörən siyasətinin parlaq nəticəsi olaraq Azərbaycanın davamlı inkişafının şahidlərinə çevrilməkdəyik. Ona görə də, qeyd etmək istərdim ki, Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi Azərbaycan xalqının qəlbində daim yaşayır və bundan sonra da yaşadılacaqdır. Çünki O, bizim xilaskarımızdır. Elə bir xilaskarımız ki, əgər qətiyyəti, müdrikliyi və uzaqgörənliyi olmasa idi, bu günün müstəqil və inkişaf edən Azərbaycanı da olmazdı. Elə də uzaq olmayan tariximizi xatırlasaq, bir daha görərik ki, 1991-1993-cü illərdə siyasi hakimiyyətin səriştəsizliyi nəticəsində dövlətçiliyimizin və xalqımızın taleyi ciddi təhlükələrlə üz-üzə idi. O zaman ölkənin bir qrup vətənpərvər ziyalısı Yeni Azərbaycan Partiyasının yaradılması zərurətini başa düşdü və bu təşəbbüslə çıxış etdi. Partiyanın təsis konfransı Naxçıvanda keçirildi və Ulu Öndər Heydər Əliyev yekdilliklə partiyanın Sədri seçildi. Ondan sonra siyasi hadisələrin necə cərəyan etdiyini, Ulu Öndər Heydər Əliyevin xalqın təkidi ilə Azərbaycanın siyasi rəhbərliyinə qayıtması ilə ölkəni sürükləndiyi uçurumdan necə xilas etməsini hamımız yaxşı bilirik. Çünki biz bu yaxın keçmişimizin canlı şahidləriyik. Məhz belə bir vaxtda xalq dahi şəxsiyyət Dahi Öndər Heydər Əliyevə inanaraq, Onu böyük etimadla ölkə Prezidenti seçdi. Məhz Ulu Öndər Heydər Əliyevin xilaskarlıq missiyasının başlaması ilə Azərbaycanımız üzləşdiyi bütün bəlalardan nicat tapdı və bu gün Onun qurub-yaratdığı müstəqil dövlətdə qürurla yaşayırıq. Bütövlükdə, müstəqillik dövründə Ümummilli Liderimiz Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən çoxşaxəli siyasət bu inkişafın əsasını qoydu və yeni, tarixi perspektivlər müəyyənləşdirdi. Nəticə etibarilə, Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu siyasət bu gün Yeni Azərbaycan Partiyasının Sədri, Prezident İlham Əliyev tərəfindən müasir çağırışlara uyğun şəkildə uğurla davam və inkişaf etdirilir.

## - YAP Səbail rayon təşkilatının qadınlar şurasının sədri Tərənə Kərimova:

- Azərbaycanın çoxəsrlik dövlətçilik tarixində özünün müstəsna əhəmiyyəti, xalqımızın nəinki bu günü, həm də gələcək taleyinin müəyyənləşdirilməsi baxımından Ulu Öndər Heydər Əliyev dühası bənzərsizdir. Bu dühanın hər bir mərhələsi müasir tariximizin bütöv bir salnaməsini təşkil edir ki, onun da hər bir səhifəsi, hər bir sətri Ulu Öndərimiz Heydər Əliyevin qüdrətli əlləri ilə yazılıb. Bu mərhələləri təhlil etməzdən əvvəl, belə bir vacib aspekti önə çəkmək lazımdır ki, Azərbaycanın və bütün Türk dünyasının böyük oğlu Heydər Əliyevin fəaliyyəti öz əhəmiyyəti etibarilə ölkəmizin hüdudlarından çox-çox kənara çıxaraq, zəngin məna tutumu ilə bəşəri zirvəyə yüksəlib. Milli-mənəvi irsimizin dəyərlərini özümüzə qaytarması, çoxəsrlik adət-ənənələrimizi yaşatması, azərbaycançılıq məfkurəsinin və milli ruhun hədsiz yüksəlişi, milli özünüdərkin hər cür buxovlardan azad olunaraq öz həqiqi təsdiqini tapması kimi fundamental prinsiplər əsasında milli dövlətçilik arzularımızın real siyasi amilə çevrilməsinə nail olması Azərbaycanı bəşər sivilizasiyasının beşiyi olan ölkələrdən biri, xalqımızı isə zəngin və unikal bir mədəniyyətin övladları adlandıran Dahi Öndər Heydər Əliyevin ən böyük xidmətlərindəndir.

Qürur hissi ilə qeyd etmək istərdim ki, müstəqillik məfkurəsi və vətənpərvərlik düşüncəsi əsasında bütün fəaliyyətini Azərbaycan xalqının ali mənafeyinə həsr edən Ulu Öndər Heydər Əliyevin misilsiz tarixi xidmətlərindən biri, məhz ümumxalq partiyası olan YAP-ın yaradılması idi.



Olduqca çətin və mürəkkəb şəraitdə Azərbaycan xalqının qabaqcıl potensialını səfərbər edərək, müstəqillik məfkurəsi əsasında fəaliyyət göstərən Ümummilli Liderimiz o zamankı hakimiyyətin və müəyyən qüvvələrin maneələri ilə üzləşsə də, bir addım belə geri çəkilmədi. Hakimiyyətdə olan AXC-Müsavat cütlüyünün törətdiyi süni maneələrə baxmayaraq, ölkə ziyalılarının təkidli çağırışları və xalqın etimadı sayəsində 1992-ci il noyabrın 21-də Naxçıvanda keçirilən təsis konfransında Yeni Azərbaycan Partiyası təsis edildi və Ulu Öndər Heydər Əliyev partiyanın Sədri seçildi. O zamankı hakimiyyət dairələrinin Yeni Azərbaycan Partiyasının yaranmasına göstərdikləri maneələr, ardıcıl təzyiqlər bu yola qədəm qoyan insanları özlərinin ali məqsədlərindən döndərə bilmədi. Ümummilli Liderimizin nüfuzu, Azərbaycan xalqının Ona göstərdiyi misilsiz etimad Yeni Azərbaycan Partiyasının o dövrdə müxalifət partiyası olmasına baxmayaraq, qısa müddət ərzində təşkilatlanmasına, ölkənin bütün regionlarında özəklərini yaratmasına və 1993-cü ildə hakimiyyətə gəlməsinə şərait yaratdı.

Bu gün Ulu Öndərimizin layiqli davamçısı, partiyamızın Sədri, ölkə Prezidenti İlham Əliyev bütün varlığı və xarizması, qətiyyəti və müdrik siyasəti ilə Ulu Öndər Heydər Əliyev yolunu uğurla davam etdirməkdədir. “Azərbaycanı daha qüdrətli dövlətə çevirmək üçün, ən başlıcası, ölkədə Dahi Öndər Heydər Əliyevin siyasəti davam etdirilməlidir. Mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacaq, heç vaxt bu yoldan dönməyəcəyəm” söyləyən ölkə başçısı İlham Əliyev atdığı hər addımında bu vədinə sadiqliyini nümayiş etdirir.

***Rəfiqə KAMALQIZI***
***Rövşən NURƏDDİNOĞLU***

# Suraxanıda Ulu Öndər Heydər Əliyevin xatirəsi anılıb



Suraxanı rayonunda Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anım günü ilə bağlı rayonun idarə, müəssisə və təşkilatlarında silsilə tədbirlər keçirilir. Rayon icra hakimiyyətinin təşkilatçılığı ilə növbəti tədbir 15 nömrəli Birləşmiş Şəhər Xəstəxanasında keçirilib. Anım tədbirinin əvvəlində bir dəqiqəlik sükutla Azərbaycan xalqının Ulu Öndər



Heydər Əliyevin əziz xatirəsi yad edilib.

Tədbiri giriş sözü ilə açan 15 nömrəli Birləşmiş Şəhər Xəstəxanasının baş həkimi Ramella Quliyeva bildirib ki, parlaq zəkası, dövlətçilik təcrübəsi, yenilməzliyi və cəsarəti ilə müstəqil Azərbaycan dövlətini məhvolma təhlükəsindən qoruyub-saxlayan, onu yaşadan və bu dövlətin bütün atributlarını qurub-yaradan Ümummilli Lider Heydər Əliyevin Vətən və xalq qarşısında xidmətləri əvəzsizdir.

Tədbirdə çıxış edən Suraxanı rayon icra hakimiyyəti başçısı aparatının ictimai-siyasi və humanitar məsələlər şöbəsinin baş məsləhətçisi Nazim Fətullayev bildirib ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev, ilk növbədə, dövlətçilik tariximizin müasir mərhələsinin əsasını qoymuşdur: "Azərbaycan gerçəkliyini, onun ictimai-siyasi, mədəni-mənəvi həyatının bütün sahələrini əks etdirən mükəmməl bir elmi-nəzəri sistem-dövlət quruculuğu fəlsəfəsini, dövlətçilik ideologiyasını yaratmışdır. Ulu Öndər Heydər Əliyevin ölkəmizin inkişafı sahəsində başladığı nəhəng işlər, möhtəşəm layihələr bu gün Onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun Prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi altında Ulu Öndərin ideallarının ictimai şüurda möhkəmlənməsi istiqamətində davamlı işlər aparılır".

Tədbirdə 15 nömrəli Birləşmiş şəhər Xəstəxanasının həkimləri Şəfa Yusifova və Razi Hacıyev çıxış ediblər.

**ZÜMRÜD**

# YAP Binəqədi rayon təşkilatında "Heydər Əliyev irsini öyrənirik" dərslərinə start verilib



Dünən Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının inzibati binasında Binəqədi rayonunun 126, 143 və 283 nömrəli tam orta ümumtəhsil məktəblərinin şagirdlərinin iştirakı ilə "Heydər Əliyev irsini öyrənirik" dərslərinə start verilib. Tədbirin rəsmi hissəsi başlamazdan öncə, iştirakçılar Ulu Öndər Heydər Əliyevin YAP Binəqədi rayon təşkilatının inzibati binasının qarşısında ucaldılmış abidəsi



önünə gül dəstələri qoyublar.

Tədbiri giriş sözü ilə açan YAP Binəqədi rayon təşkilatının sədr müavini, 283 nömrəli tam orta ümumtəhsil məktəbinin direktoru Tünzalə Zeynalova Bakı şəhərinin məktəbləri arasında təşkil edilən və Ümummilli Lider Heydər Əliyevin həyatından və fəaliyyətindən bəhs edən "Heydər Əliyev irsini öyrənirik" dərsləri haqqında məlumat verib. Bu dərslərin yüksək əhəmiyyətindən danışaraq, şagirdlərin maarifləndirilməsinə mühüm töhfələr verdiyini diqqətə çatdırıb.

Tədbirdə YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov "Ulu Öndər Heydər Əliyevin Azərbaycanda ikinci dəfə siyasi hakimiyyətə qayıdışı" mövzusunda geniş mühazirə ilə çıxış edib. R.Göyüşov bildirib ki, dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycan dövləti və xalqı qarşısında misilsiz xidmətləri olub. Bu baxımdan, Ulu Öndərin zəngin və çoxşaxəli irsi daim araşdırılmalı, öyrənilməli və gənclərə çatdırılmalıdır.

Tədbirin sonunda Bakı şəhəri üzrə Təhsil İdarəsinin müdir müavini, YAP Binəqədi rayon təşkilatının sədr müavini Hüseyn Əsgərov çıxış edərək Ulu Öndər Heydər Əliyevin Azərbaycanın inkişafı və təhlükəsizliyinin təminatı sahəsində misilsiz fəaliyyətindən danışıb. Qeyd edib ki, Ümummilli Lider Heydər Əliyevin siyasi, iqtisadi, ictimai və mədəni həyatın bütün sahələrində gördüyü işlər, artıq Azərbaycanı inkişaf yoluna çıxarıb. Onun fəaliyyəti də, şəxsiyyəti də Azərbaycan tarixinin ayrılmaz hissəsini təşkil edir.

Tədbirin sonunda birgə xatirə şəkli çəkdirilib.

**ZÜMRÜD BAYRAMOVA**

# Unudulmaz şəxsiyyət, dahi lider

*Sabunçu rayonu icra hakimiyyətinin və YAP Sabunçu rayon təşkilatının birgə təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin anım mərasimini keçirib*



Dünən Sabunçu rayonu icra hakimiyyətinin və YAP Sabunçu rayon təşkilatının birgə təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin anım mərasimini keçirib. İlk öncə, dövlət himni səslənib. Sonra tədbir iştirakçıları Ulu Öndər Heydər Əliyevin əziz xatirəsini bir dəqiqəlik



sükutla yad etdilər və Ulu Öndər Heydər Əliyevə həsr olunan video-çarx nümayiş etdirildi.

Tədbiri giriş sözü ilə Sabunçu rayon icra hakimiyyətinin başçısı Adil Vəliyev açaraq, müasir müstəqil Azərbaycanın memarı və qurucusu, xalqımızın müdrik rəhbəri, dünya şöhrətli siyasi xadim, türk dünyasının böyük oğlu Heydər Əliyevin xalqımızın qarşısında göstərdiyi xidmətlərdən, hüquqi dövlət quruculuğu istiqamətində həyata keçirdiyi uğurlu siyasət haqqında tədbir iştirakçılarına məlumat verdi: "Dünya tarixi sübut etmişdir ki, şəxsiyyətlərin gücü, ağlı, cəsarəti, siyasi iradəsi və müdrikliyi mənsub olduğu xalqın, onun yaratdığı dövlətin həyatında əvəzedilməz rola malikdir. Bu şəxsiyyətlər arasında müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, Ulu Öndər Heydər Əliyevin özünəməxsus yeri vardır".

A.Vəliyev onu da vurğuladı ki, bütün varlığı ilə Vətəninə, xalqına bağlı olan Ümummilli Lider Heydər Əliyevin ideyaları hazırda, Onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən həyata keçirilir, yeni-yeni uğurlara yol açır: "Nə qədər ki, müstəqil Azərbaycan var, Ulu Öndər Heydər Əliyevin də parlaq xatirəsi daima xalqımızın qəlbində və yaddaşlarda yaşayacaq".

Anım mərasimində İlqar Abbasov çıxış edərək Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən müdrik dövlətçilik siyasəti nəticəsində bu gün Azərbaycanda mütərəqqi və dünyəvi dəyərlərə uyğun islahatlar aparıldığını söyləyib.

YAP Sabunçu rayon təşkilatının sədri Mehriban Abasquliyeva anım mərasimində çıxış edərək Ulu Öndər Heydər Əliyevin uğurlu daxili və xarici siyasəti nəticəsində Azərbaycanın dövlət müstəqilliyi əbədi, dönməz və sarsılmaz olduğunu bildirib: "Ulu Öndər Heydər Əliyev Azərbaycanın tarixində dönüş edən, onu parçalanmaqdan qoruyaraq uğurlu yola çıxaran böyük dövlət xadimi kimi xarakterizə olunur. Bu gün Azərbaycan iqtisadiyyatının yüksək səviyyədə inkişafının təməli, məhz Heydər Əliyev tərəfindən qoyulan strateji xətt üzrə həyata keçirilir. Azərbaycan xalqının sosial-iqtisadi rifahı günü-gündən yüksəlir, ölkənin siyasi potensialı güclənir və regionda lider dövlətə çevrilmişdir".

Tədbirdə çıxış edən digər natiqlər qeyd ediblər ki, Dahi Şəxsiyyət Heydər Əliyev böyük ideyaların müəllifi kimi nəsildən-nəslə keçərək Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır.

Sonda məktəblilər Ulu Öndər Heydər Əliyevə həsr olunan şeirlər söyləyiblər.

**RƏFİQƏ HÜSEYNOVA**

# "Jewish Journal" Hanuka bayramı və Azərbaycanda tolerant cəmiyyətdən yazıb




Amerikanın "Jewish Journal" nəşrində Xocalı qırğınının canlı şahidi Dürdanə Ağayevanın yəhudilərin Hanuka bayramı və onun Azərbaycanın tolerant cəmiyyəti üçün əhəmiyyətindən bəhs edilən məqaləsi dərc olunub.

AZƏRTAC xəbər verir ki, faciəli taleyindən danışan D.Ağayeva gələcəyə inamla addımladığı dirçəliş yolundan söz açıb. Qeyd edib ki, Hanuka Bakının izdihamlı küçələrindən tutmuş Qubada yəhudilərin yaşadığı Krasnaya Sloboda kəndinədək Azərbaycanın hər yerində bayram edilir. Müəllif yazır ki, insanlar yəhudilərin tarixinə aid olan Hanuka irsinin əhəmiyyətini yaxşı başa düşürlər. Bu millətin bütün dünyadakı nümayəndələri möcüzə nəticəsində XX əsrdə məruz qaldıqları bütün faciələri mətanətlə adlayıb və hazırda tərəqqi yoluna qədəm qoyublar. D.Ağayeva qeyd edir: "İşıq bayramı olan Hanukanın mənası qaranlıqlar (ölüm) dünyasında həyatın (işığın) yaradılmasıdır. Düşünürəm ki, bu, bayramın qayəsini təşkil edən və mənim də sıx bağlandığımı hiss etdiyim ən güclü öyüddür". Müəllif daha sonra yazır: "Bu öyüd təkcə mənə və sağ qalmış digər insanlara deyil, bizim milli xarakterimizin ayrılmaz hissəsi olan etiqadın, dinlərarası və mədəniyyətlərarası tolerantlığın, harmoniya və sülhün bərqərar olacağı bir dünyaya işıq saçan ölkəmizdə yaşayan bütün qardaş və bacılarıma aiddir. Biz, həmçinin uzun illərdir azərbaycanlıları məhv etmək, tariximizi, mədəniyyətimizi və adət-ənənələrimizi yox etmək istəyən yadelli işğalçıların təcavüzündən əziyyət çəkən ölkəyik".

# "Azərbaycan terrorla mübarizənin ən fəal tərəfdarı kimi çıxış edir"



***"Azərbaycan Respublikasının "Qlobal terrorçuluq indeksi" məruzəsində 98-ci yeri tutması cənab Prezident İlham Əliyevin reallaşdırdığı uğurlu daxili və xarici siyasətin bariz nümunəsidir". Bunu SİA-ya açıqlamasında politoloq Ehtiram Aşırlı deyib.***

Onun sözlərinə görə, Azərbaycan hər zaman terrorla mübarizənin ən fəal tərəfdarlarından biri kimi çıxış edir: "Xüsusilə, Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarında vurğuladığı ən əhəmiyyətli məsələlərdən biri istər regional, istərsə də qlobal səviyyədə terrorla mübarizə fəaliyyətlərinin genişləndirilməsi məsələsidir. Bu da onu göstərir ki, Azərbaycan xarici siyasət kursunun əsas prioritet məsələlərindən biri də məhz terrorla mübarizədir.

2001-ci ilin 11 sentyabr hadisələri dünya dövlətlərinin beynəlxalq terrorizmə və təcavüzkar separatizmə daha həssaslıqla yanaşması, terrora və onu dəstəkləyən dövlətlərə qarşı barışmaz mövqenin təşəkkül tapması, qlobal cinayətlər əleyhinə mübarizədə beynəlxalq birliyin səylərinin birləşdirilməsi üçün zəmin yaradıb.

Azərbaycan Respublikası 11 sentyabr hadisələrindən sonra antiterror koalisiyasına daxil olan ilk dövlətlərdən biridir. Dövlətimizin bu istiqamətdə əldə etdiyi önəmli nəticələr dünya birliyi və beynəlxalq ictimaiyyət tərəfindən yüksək qiymətləndirilir. Heç şübhəsiz ki, Azərbaycanın terrorla mübarizə fəaliyyətlərində uğurlar əldə etməsində ən mühüm amillərdən biri də Dövlət Təhlükəsizlik Xidməti, Dövlət Sərhəd Xidməti və digər hüquq-mühafizə orqanlarının öz işinin öhdəsindən layiqincə gəlməsindən irəli gəlir".

*Ceyhun Rasimoğlu*

# Rusiya mətbuatı Ermənistan seçkilərindən nə yazır?

***Ermənistan bazar günü növbədənkənar parlament seçkilərini keçirməyə hazırlaşır və bu seçkilər yazda baş vermiş "məxməri inqilab"dan sonra hakimiyyət tranzitinə birdəfəlik son qoyacaq. Bu barədə RİA-Novosti agentliyinin analitik bölməsində dərc olunmuş məqaləsində qeyd olunub. "Ermənistanda seçkilər: anti-Rusiya gücləri nəyə ümid edirlər?" başlıqlı məqalə, əsasən, Ermənistanda anti-Rusiya meyillərinin güclənməsindən bəhs etməklə yanaşı, Nikol Paşinyanın səriştəsizliyi və siyasi boşluqlarına da diqqət çəkir.***

Bildirilir ki, seçki yarışında 11 partiya və seçki blokları iştirak edir və onların yalnız yarısı gələcək parlamentin heyətinə düşə bilər. "Bu seçkilərin əsas favoriti "məxməri inqilab"ın lideri N.Paşinyanın rəhbərlik etdiyi "Mənim addımım" blokudur" yazan müəllif bildirir ki, bütün ekspertlər və KİV-lər, birmənalı olaraq, onun qələbə qazanacağını proqnozlaşdırırlar. SİTAT: "Yeganə sual isə budur ki, Paşinyanın bloku sentyabr ayında keçirilmiş mer seçkilərindəki nəticələrini təkrar edə biləcək, yoxsa daha az səs qazanacaq. Seçki rəqabətində və orada iştirak edənlərin şansları barədə danışarkən, ən çox görünən amil digər iştirakçıların qabaqcadan "Mənim addımım" seçki blokunun qələbə qazanacağından danışırlar və seçiciləri özlərinə səs verməyə səsləyirlər ki, heç olmasa, parlamentə düşərkən, müəyyən dərəcədə müxalifətçilik edə bilsinlər. Bununla yanaşı, demək olar ki, bütün iştirakçılar Paşinyana, eləcə də, "məxməri inqilab"a dəstək yönündən çıxış edirlər və onların parlamentə seçiləcəkləri halda, mövcud hakimiyyətə qarşı real müxalifətçilik cəbhəsindən çıxış edəcəkləri barədə verdikləri vədlər seçicilərdə şübhələr yaradır. Yalnız Respublika partiyası, keçmiş iqtidar partiyası olaraq, "məxməri inqilab"a və şəxsən Paşinyana qarşı çıxır..."

### Seçkilərə qatılmış parlamentin köhnə sakinləri də iflasa uğradıqdan sonra "pensiyaya" çıxacaqlar

"Qeyd etmək lazımdır ki, dekabr seçkiləri, ümumilikdə, siyasi nəsli dəyişəcək" deyə qeyd edilən məqalədə bildirilir ki, bu seçkilərdə iştirak etməkdən uzun illər müxalifətdə olan liderlər - Levon Ter-Petrosyanın "Erməni Milli Konqresi" və Raffi Ovannisyanın "İrs" partiyaları imtina ediblər. Eləcə də, seçkilərə qatılmış parlamentin köhnə sakinləri də iflasa uğradıqdan sonra "pensiyaya" çıxacaqlar.

Beləliklə, ölkənin siyasi mühitində dəyişikliyin olacağını istisna etməyən müəllif, əslində, xarici siyasətdə də, ciddi problemlərin yaşanacağını qeyd edib.



### Paşinyan öz sələfindən fərqli olaraq, özünü daha emosional apararaq, KTMT-də və Avrasiya İttifaqında ictimai qovğalar yaradacaq

Müəllifin fikrincə, "Mənim addımım" bloku, faktiki olaraq, Respublika Partiyasının yerini tutacaq və öz sələfinin siyasətini təkrarlayaraq, respublikanın Avrasiya İttifaqında və KTMT-dəki üzvlüyünün davam etdirilməsi, eləcə də, Rusiyaya bağlılığı istiqamətində bu ölkə ilə hərbi-siyasi ittifaqa sədaqəti yönündən çıxış edəcək. Lakin eyni zamanda, Qərblə, xüsusilə, Avropa İttifaqı ilə münasibətlərini inkişaf etdirməyə cəhd göstərəcək. "Bununla yanaşı, Paşinyan öz sələfindən fərqli olaraq, özünü daha emosional apararaq, KTMT-də və Avrasiya İttifaqında ictimai qovğalar yaradacaq" deyə yazıda qeyd olunub.

Məqalədəki digər maraqlı məqam Respublika Partiyası barədə verilən proqnozlardır. SİTAT: "Mənim addımım"ın analoji mövqeyini parlamentə düşəcəyi təqdirdə, Respublika Partiyası tutacaq. "Çiçəklənən Ermənistan" isə özünü daha açıq şəkildə Rusiyameyilli kimi göstərəcək və bunu Moskvaya nə qədər yaxın olduğunu göstərmək üçün edəcək. Bu məqsədlə, "Çiçəklənən Ermənistan"ın nümayəndə heyəti Rusiya dumasının spikeri Vyaçeslav Volodonla və "Vahid Rusiya" fraksiyasının rəhbəri Sergey Neverovla görüş keçirib".

### Ermənistanın yeni parlamentində anti-Rusiya meyilli partiyalardan daha çox şanslı kimi "Sasna-Srer" göstərilir

Müəllif daha iki partiyanın seçki baryerini keçəcəyini yazıb və qeyd edilib ki, fərqli geosiyasi orientasiya həmin partiyalarda müşahidə olunur: "Çiçəklənən Ermənistan" daha çox qərbyönümlü olsa da, anti-Rusiya baxışından çıxış etməməsi tipində xarakterizə edilsə də, radikallar tərəfindən təsis edilmiş və təmsilçiləri 2016-cı ilin yayında İrəvandakı polis alayına hücum edən "Sasna-Srer" Partiyasında Rusiyaya qarşı çıxmaq məqsədi açıq-aydın görünür".

Beləliklə, Ermənistanın yeni parlamentində anti-Rusiya meyilli partiyalardan daha çox şanslı kimi "Sasna-Srer" göstərilir. Yeri gəlmişkən, bu yaxınlarda "Sasna-Srer" Partiyasının təmsilçiləri Paşinyanın siyasi fəaliyyətində boşluqlar olacağı halda, hətta silahlı müqavimət göstərəcəklərini də gizlətməyərək, erməni mətbuatında öz siyasi maraqlarını açıqlayıblar. Ümumilikdə isə, Ermənistanda dekabrın 9-dan sonra ciddi və hətta ölkədaxili çaxnaşmaların yaşanacağını kifayət qədər proqnozlaşdırmaq mümkündür.

*Rövşən NURƏDDİNOĞLU*

# DSX: Dənizdə batmaq təhlükəsi ilə üzləşən iki balıqçı xilas edilib



Xəzər dənizində, Heydər Əliyev adına Bakı dərin özüllər zavodu istiqamətində texniki nasazlıq səbəbindən batma təhlükəsi ilə üzləşən "SA-16129" nömrəli, "Yamaha-75" mühərrikli üzmə vasitəsinin iki nəfərdən ibarət heyəti kömək üçün Dövlət Sərhəd Xidməti (DSX) Sahil Mühafizəsinin sahil nəzarəti bölməsinə müraciət edib.

DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, sahil nəzarəti bölməsi xidmətdə olan sərhəd gözətçi gəmisinə təhlükə ilə üzləşən üzmə vasitəsinin koordinatlarını ötürüb. Texniki nasazlıq səbəbindən Makarov bankasının qərb istiqamətində sahildən 13 mil məsafədə dənizdə qalmış balıqçı qayığı sərhəd gözətçi gəmisinin dalğalı hava şəraitində həyata keçirdiyi axtarış-xilasetmə tədbirləri nəticəsində aşkarlanıb. Gəmi tərəfindən üzmə vasitəsi yedəyə alınıb. Qayıqdakı iki nəfər xilas edilərək sərhəd gözətçi gəmisinin göyərtəsinə götürülüb. DSX-nin hərbi qulluqçuları tərəfindən xilas edilmiş şəxslər Bakı şəhər sakinləri Ququşev Nikolay Anatolyeviç və İbrahimov Ağasəf Sahib oğludur.

# Laura Kuper: "Dağlıq Qarabağ münaqişəsi dinc yolla həll olunmalıdır"



"ABŞ və Azərbaycan arasında terrorizm, narkotiklərin və kütləvi qırğın silahlarının yayılması da daxil olmaqla transmilli təhlükələrə qarşı aparılan ikitərəfli münasibətləri dərinləşdirmək vacibdir". ABŞ-ın Azərbaycandakı səfirliyinin mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, bunu Azərbaycanda səfərdə olan ABŞ müdafiə naziri müavininin müşaviri xanım Laura Kuper bildirib.

"Amerika Birləşmiş Ştatlarının müttəfiqləri ilə münasibətləri gücləndirməyə, tərəfdaşdıq əlaqələrinin möhkəmləndirməyə və vəzifələri paylaşmağa çalışdığımız zaman Azərbaycana bizim iki dövlət arasında olan əlaqələrin dərinləşməsi üçün göstərdiyi sadiqliyə görə minnətdarlıq bildirirəm", - L.Kuper deyib.

O, Avropa və Asiya arasında strateji mövqeydə yerləşən Azərbaycana terrorizmə qarşı aparılan mübarizədə göstərdiyi vacib tərəfdaşlığa görə təşəkkür bildirib:"Birləşmiş Ştatlar Azərbaycanın NATO-un Əfqanıstandakı missiyasına verdiyi uzun müddətli töhfələrini qiymətləndirir. Azərbaycan mürəkkəb bir məkanda yerləşir. Bu yaxında biz Russiya tərəfindən Ukraynada beynəlxalq qanunu pozaraq Kerç Boğazından keçən su nəqiliyyatına qarşı etdiyi qanunsuz və əsassız təcavüsün sahidi olduq. Ukrayna gəmilərinin evə qayıtdığı zaman beynəlxalq sularda hücuma məruz qalması Birləşmiş Ştatları dərindən narahat edir".

Laura Kuper ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri olan Birləşmiş Ştatların Dağlıq Qarabağmünaqişəsinin dinc həllinə olan öhdəliyini yenidən təkrarlayıb və münaqişənin həllinin gücün və təhdidlərin istifadə olunmaması, ərazi bütövlüyü, və insanların müqəddaratını müəyyən etmə hüququda daxil olmaqla Helsinki Yekun Aktına əsaslanmasını vurğulayıb.

# Daha 13 rayon üzrə 1404 arıçıya subsidiya verilməsi barədə qərar qəbul olunub

Kənd Təsərrüfatı Nazirliyində Arıçılıqla məşğul olan fiziki və hüquqi şəxslərə saxladıqları hər arı ailəsinə (pətəyə) görə subsidiyanın ödənilməsinin təmin edilməsi üzrə Respublika Komissiyasının növbəti iclası keçirilib. Nazirliyin ictimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Respublika Komissiyasının sədri, kənd təsərrüfatı nazirinin müavini İlham Quliyevin sədrliyi ilə keçən iclasda 13 rayon komissiyasından daxil olmuş sənədlərə baxılıb, 1404 arıçıya saxladıqları 37393 arı ailəsinə görə dövlət büdcəsinin vəsaiti hesabına hər arı ailəsinə 10 manat hesabı ilə 373 min 930 manat məbləğində subsidiyanın verilməsi barədə qərarlar qəbul edilib.

# "Lazarev klubu" təxribatla məşğuldur

***Y**erevanda keçirilmiş Rusiya-Ermənistan "Lazarev klubu"nun iclasında Rusiya Federasiyası Federal Məclisinin Dövlət Dumasının 7-ci çağırışında MDB Məsələləri, Avrasiya İnteqrasiyası və Həmvətənlərlə Əlaqələr üzrə Komitə sədrinin birinci müavini vəzifəsini icra edən Konstantin Zatulin, MDB Ölkələrinin institutunun direktor müavini Vladimir Yevseyev və digər şəxslər Azərbaycan Respublikasının ərazi bütövlüyünə qarşı açıq hücum xarakteri daşıyan fikirlər səsləndirib, ermənipərəst mövqelərini ortaya qoyublar.*



Söhbət etdiyimiz müsahiblərimiz qondarma iclasda səslənən fikirlərin cəfəngiyyat olduğunu və MDB çərçivəsində əməkdaşlıq ruhuna zərbə vurduğunu bildirdilər.

## Siyasi şərhçi Azər Həsrət: "Əslində, ermənilərlə oturub-duran istənilən şəxsə şübhə ilə yaşamaq lazımdır"

- Əslində, ermənilərlə oturub-duran istənilən şəxsə şübhə ilə yaşamaq lazımdır. Yəni onların əsas məqsədi ermənilərin maraqlarına xidmət etməkdir. İndiki məqamda da, ermənilərin maraqları nəyi tələb edir, Azərbaycanla Rusiyanın arasını vurmağı, bax, məhz ona görə də "Lazarev klubu" bir araya toplaşıb və Azərbaycanı özündən çıxaracaq, Azərbaycan ictimai rəyini əsəbləşdirəcək fikirlər səsləndirirlər. Təbiidir ki, bizdə bu məsələdə bir qədər təmkinli davranmalıyıq. Yəni bu adamların məqsədi Azərbaycan və Rusiya ictimai rəyində yeni bir müzakirəni açmaq və bu müzakirəni qızışdırmaq Azərbaycan və Rusiya ictimai rəyi arasında gərgin münasibətlərə nail olmaqdır. Azərbaycan dövləti ilə Rusiya dövləti arasında heç bir problem yoxdur. Xüsusən də, prezidentlər arasında çox yaxın dostluq münasibətləri var və o münasibətlərə uyğun olaraq dövlətlərimiz arasında xoş qarşılıqlı əlaqələr mövcuddur. İndi kimsə hardansa çıxıb ermənilərin istəyincə belə bir şey səsləndiribsə, biz ona bənd olmamalıyıq. Yəni ermənilərin və onların dostlarının məqsədinə uyğun davranmamalıyıq. Demək olar ki, bu şəxslər bizi qarşı-qarşıya gətirmək istəyirlər və biz də onların bu hiyləsini anladığımız üçün onlara şans verməməliyik ki, Rusiya ilə Azərbaycan arasında münasibətləri gərginləşdirsinlər. Azərbaycan dövləti, Prezidenti və bütövlükdə, Azərbaycan ictimai rəyinin öndə gələni də erməni məkrini və ermənilərin məkrli niyyətlərinə xidmət edənləri yaxşı anlayır. Ancaq onlar istəklərinə nail ola bilməyəcək və Azərbaycanla Rusiya arasında münasibətləri gərginləşdirə bilməyəcəklər.

**GÜLYANƏ**

## Avtobus qəzasında xəsarət alanların səhhəti ilə bağlı Səhiyyə Nazirliyi məlumat verib




**A**vtobusun qəzaya uğraması nəticəsində xəsarət alan şagirdlər və onların valideynlərinin hazırkı vəziyyəti barədə Səhiyyə Nazirliyindən açıqlama verilib. AZƏRTAC xəbər verir ki, nazirliyin məlumatına əsasən iki böyük və iki azyaşlı olmaqla dörd nəfər 1 saylı Şəhər Kliniki Xəstəxanasına yerləşdirilib. Xəstələrin vəziyyəti normaldır, ağır travma, sınıq qeydə alınmayıb. Onların bu gün nəzarətdə saxlanıldıqdan sonra sabah evə buraxılması nəzərdə tutulur.

Məlumat verdiyimiz kimi dekabrın 7-də saat 07:45 radələrində məktəbliləri daşıyan avtobus paytaxtın Qobu qəsəbəsindən şəhər istiqamətində hərəkətdə olarkən qəzaya uğrayıb. Nəticədə avtobusda olan Binəqədi rayonundakı 217 nömrəli tam orta məktəbin 2 şagirdi və 2 valideyn xəstəxanaya yerləşdirilib.

## Türkiyədə Rusiya səfirinin öldürülməsi ilə bağlı məhkəmə yanvarın 8-də başlayacaq



**T**ürkiyə məhkəməsi Rusiyanın Ankaradakı səfiri Andrey Karlovun öldürülməsi ilə bağlı ittihamnaməni qəbul edib. AZƏRTAC Anadolu informasiya agentliyinə istinadla xəbər verir ki, cinayət işi ilə bağlı məhkəmə prosesi 2019-cu il yanvarın 8-də başlayacaq.

Ankara Cümhuriyyət Baş Prokurorluğu tərəfindən hazırlanan və aralarında Fətullah Gülənin də olduğu 28 nəfərin yer aldığı ittihamnamədə şübhəli şəxslərə "konstitusiya quruluşunun devrilməsi", "silahlı terror qruplaşmasına üzvlük", "terror məqsədi ilə planlaşdırılan qətl" və digər ittihamlar irəli sürülüb, onlar barəsində ağırlaşdırılmış ömürlük və müxtəlif həbs cəzaları tələb edilib. İttihamnamədə Karlovun həyat yoldaşı Marina Mixaylovna, həmçinin hücum zamanı yaralanan Anıl Deyer, Leyla Gündoğan və Anastas Zimrikaki də şikayətçi qismində yer alıblar.

Qeyd edək ki, Rusiyanın Türkiyədəki səfiri Andrey Karlov 2016-cı il dekabrın 19-da Ankarada fotosərginin açılışında çıxış edərkən qətlə yetirilib. Səfirə atəş açan polis əməkdaşı Mövlud Mert Altıntaş əməliyyatın gedişində öldürülüb. Karlov ölümündən sonra Rusiya Qəhrəmanı adına layiq görülüb.




## "Nar"-dan "Samsung Galaxy Note 9" qazanan abunəçi məlum oldu

**"N**ar" dörd gün davam edən "BakuTel-2018" 24-cü Beynəlxalq Telekommunikasiya və İnformasiya Texnologiyaları Sərgisində uğurla iştirak etdi və ən son yeniliklərini nümayiş etdirdi. Sərgi müddətində mobil operatorun stendi ziyarətçilərin diqqətini cəlb etdi və 4 gün ərzində "Nar" stendini 8 mindən çox insan etdi. Mobil operatorun təqdim etdiyi "Nar TV" və "Nar WiFi" ruteri qonaqların böyük marağına səbəb oldu. Sərgi iştirakçıları mobil operatorun ən son məhsulları ilə bilavasitə tanış olmaqla yanaşı, sınaqdan keçirmək fürsəti də qazandılar. Burada həmçinin maraqlı təqdimatlar keçirildi, müsabiqələr, müxtəlif yarışmalar və oyunlar təşkil edildi. Maraqlı təqdimatlar və ziyarətçi axını sayəsində "Nar" stendi sərginin "Ən yaxşı korporativ stil" stendi seçilib.

4-7 dekabr 2018-ci il tarixləri arasında Bakı Ekspo Mərkəzində keçirilən sərgi günlərində "Nar" stendində təşkil edilmiş müsabiqələr maraqla qarşılandı. 4 gün ərzində davam edən əsas müsabiqənin qalibi elan olundu. Qalib Sevda İbrahimovaya müasir "Samsung Galaxy Note 9" telefonu hədiyyə edildi.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni əhatə edir (işğal olunmuş ərazilər istisna olmaqla) və 7300-dən artıq baza stansiyası ilə 2,1 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.



## Lənət olsun bu xəyanətkarlara!

**RƏFİQƏ**

***D**ağıdıcı müxalifətin, nəinki bugünkü, ümumiyyətlə, atdığı bütün addımlar xaricdəki erməni lobbi təşkilatlarının və xaricdəki anti-Azərbaycan qüvvələrin fəaliyyəti ilə paralellik təşkil edir. Bu bədbəxt ünsürlər gecə-gündüz Azərbaycan dövlətinə və millətinə qarşı anti-təbliğat kampaniyası aparan erməni lobbisinin vasitəsinə çevrilməklə, məhz onların planı əsasında fəaliyyət göstəriblər. Artıq hər kəs bilir ki, dağıdıcı müxalifətin "mübarizə strategiyası" təkcə hakimiyyətə qarşı deyil, eyni zamanda, dövlətə, dövlətçiliyə, xalqa, bütövlükdə, Azərbaycanın müstəqilliyinə, varlığına və haqlı mücadiləsinə qarşı yönəlib. Əbəs yerə deyil ki, düşərgə "liderləri" zaman-zaman ermənilərə "qardaş" deyənləri daim müdafiə ediblər. Ə.Kərimli, İ.Qəmbər, A.Hacılı, C.Həsənli, Leyla Yunus, Xədicə İsmayıl, Rüstəm İbrahimbəyov, Əkrəm Əylisli kimi bədnam ünsürlər azərbaycanlıları təhqir edən ermənipərəst təbliğatı aparmaqdan da usanmayıblar. Çünki bələlərinin damarlarında illərlə xəyanət qanı axıb. Lənət olsun bu xəyanətkarlara!*

Bu ünsürlər, xəyanətkar olmaqla yanaşı, həyasızcasına ölkədə uğurlara kölgə salmaq üçün, hətta söz azadlığı arqumentinə əsaslanmağa çalışaraq, məsələni siyasiləşdirir və məntiqsiz iddialar irəli sürürlər. Ermənilər kimi hiyləgərliyə əl atır, qəzet, sayt səhifələrində kosmopolit və antimilli təfəkkürlü ünsürlərə geniş yer verərək, məhz onların dili ilə öz fikirlərini cəmiyyətə sırımağa çalışırlar. Görünən odur ki, bu məsələdə də erməni lobbisi-dağıdıcı müxalifət işbirliyini "uğurla" davam etdirməklə, xəyanətkar əməllərini bir daha sübut edir.

Azərbycan cəmiyyəti, artıq dağıdıcı düşərgənin xaricdəki erməni lobbisi tərəfindən maliyyələşdirildiyini və bu düşərgə üçün milli maraq anlayışının ən son planda olduğunu çox yaxşı bilir. Ona görə də, dağıdıcı ünsürlərin ümummilli maraqlar haqqında qeyri-səmimi iddialar cəmiyyətdə ironiya ilə qarşılanır.

Birmənalı şəkildə, deyə bilərik ki, nankorlar və xəyanətkarlar toplumu dəyişilməz olaraq qalmaqdadır. Çünki xəmirləri belə yoğrulub və hər an dövlətin maraqlarına qarşı çıxış etmək üçün erməni lobbisindən və xaricdəki ermənipərəst qüvvələrdən əmr gözləmələri də təəccüblü deyil. Uzağa getməyərək, "Sülh və Demokratiya İnstitutu"nun rəhbəri Leyla Yunusun bu gün Avropada sığınacaq alaraq, Azərbaycan əleyhinə işlər apardığı deyilənlərin məntiqi sübutudur. Onun Ermənistanın "Region" Araşdırmalar Mərkəzi ilə birlikdə təsis etdiyi "publicdialogues.info" saytı da, məhz Azərbaycanda ictimai rəyi çaşdırmaq, Dağlıq Qarabağ probleminin kökü və erməni millətçilərinin torpaqlarımıza və mədəniyyətimizə iddiasını cəmiyyətin yaddaşından silmək üçün yaradılsa da, artıq xalqımız bu satıb-satılan xəyanətkarların kimliyini bilir.

Yəqin ki, oxucularımız üçün də maraqlıdır ki, erməni lobbisinin və onun "sadiq tərəfdaşı" olan dağıdıcı düşərgənin bu qədər canfəşanlıq etməsinin səbəbi nədir? Heç şübhəsiz, dağıdıcı müxalifət üçün, ilk öncə, maddi maraqlar ön plandadır. Yuxarıda qeyd etdiyimiz kimi, artıq hər kəs dağıdıcı düşərgənin erməni lobbisi tərəfindən maliyyələşdirildiyini bilir. Digər tərəfdən, ölkəmizin əldə etdiyi nailiyyətlər dostlarımızı sevindirdiyi kimi, düşmənlərimizi də kədərlə boğur, onlarda kəskin qısqanclıq hissləri yaradır. Demokratik inkişaf yolu seçmiş Azərbaycanın bütün sahələrdə və əldə etdiyi nailiyyətlər bu gün dünya birliyi tərəfindən alqışlanır. Yerləşdiyi regionun lider dövlətinə çevrilən, hətta qlobal maliyyə böhranı dövründə belə iqtisadiyyatını sürətlə inkişaf etdirən Azərbaycan Respublikası, artıq beynəlxalq aləm tərəfindən mühüm tərəfdaş kimi qəbul olunur.

Bu gün dağıdıcı müxalifət başbilənlərin anti-Azərbaycan dairələrlə baş-başa verərək, eyni addımlar atması Azərbaycan xalqının kəskin etirazına səbəb olur. Dağıdıcı düşərgə, artıq illərdir ki, ölkəmizin milli maraqlarına zərbə vurmaqla məşğuldur. Bu düşərgədə toplaşanlar isə, bu və ya digər səbəbdən incik düşmüş, öz biznes və karyera maraqlarını təmin edə bilməmiş ünsürlərdir. Onları cəmiyyət, dövlət, milli mənafelər, demokratiya, insan hüquqları və s. maraqlandırmır. Hay-küy salmaları onlar üçün əsl simalarını gizlətmək və insanları çaşdırmaq üçün vasitədir. Ancaq nə etsələr də, cidanı çuvalda gizlətmək olmaz.

# Transformasiya şəraitində insan haqları

***İnsan hüquqlarının təmin və müdafiə olunması, bilavasitə zaman və məkan parametrləri ilə şərtlənir. Məhz bu parametrlər daxilində digər amillər üzə çıxır və öz səciyyəvi xüsusiyyətlərini təzahür etdirirlər. Fəlsəfə elmləri doktoru Əbülhəsən Abbasov yazır: "Bu mənada, köklü yeniləşmələr dövrünü yaşayan cəmiyyətlərdə insan hüquq və azadlıqları məsələsi xüsusi əhəmiyyət kəsb edir.***

Belə ki, ictimai transformasiyanın gedişində həm də dövlət-vətəndaş münasibətləri, insanın xarici durumu ilə yanaşı, daxili durumu da dəyişir, insanlararası əlaqələrdə yeniləşmə (yaxşı və ya pis) baş verir. Eyni zamanda, insanın sosial rollarında, bu rolların icra olunmasında, sosiallaşma prosesinin məzmun mahiyyətində ciddi yeniliklər baş verir. Aydındır ki, belə şəraitdə olduqca ciddi dəyişikliklər insan haqları kontekstində ortaya çıxır. Bunun nəticəsi olaraq, insan haqlarının yenidən anlaşılmasında, koqnitiv müstəvinin mahiyyətcə yenidən qurulmasında, müvafiq institut və mexanizmlərin formalaşmasında çoxsaylı vəzifələrin həlli məsələsi cəmiyyət və dövlət qarşısında dayanır.

Çoxşaxəli və çoxmərhələli transformasiya hal-hazırda da davam etməkdədir. Siyasi modernləşmə bu prosesin mühüm tərkib hissəsidir. Onun yekun nəticəsi demokratik konsolidasiyadır ki, həm milli həmrəyliyə və bütövlüyə, həm də insan hüquqlarının reallaşmasına daha etibarlı zəmin yaradır. Başqa ölkələrdə həyata keçirilmiş demokratikləşmə təcrübəsi bu həqiqəti dəfələrlə təsdiq edib. Məhz demokratik əsaslarda konsolidasiya dinamik vətəndaş cəmiyyətinin qərarlaşmasına və inkişafına, dini və mədəni tolerantlığa etibarlı təminat verir. Təsadüfi deyildir ki, Azərbaycan Respublikası siyasi modernləşmənin mühüm nəticəsi hesab edilən demokratik konsolidasiyanı strateji bir məqsəd kimi qarşıya qoymuşdur. Bu məqsədin reallaşması istiqamətində artıq xeyli işlər görülmüş və Azərbaycan cəmiyyəti müəyyən uğurlar əldə etmişdir. Xüsusən, iqtisadi sahədə bu uğurlar daha qabarıq tərzdə özünü göstərməkdədir. Dünyada cərəyan edən iqtisadi böhrandan respublikamızın az itkilərlə çıxması, sosial həyat şəraitinin tənəzzülünə yol verilməməsi, davamlı iqtisadi inkişafın təmin edilməsi əldə olunmuş bu uğurların bariz nümunəsi və nəticəsidir. Ən çox inkişaf etmiş ölkələri də real təhdidlərlə üzləşdirmiş dünya maliyyə-iqtisadi böhranı "İnkişafın Azərbaycan modeli" ilə bağlı müzakirələrə yeni nəfəs vermiş, respublikamızda bazar iqtisadiyyatı sisteminə keçidin spesifik cəhətlərini, habelə, çetin bir vəziyyətdə ümumi daxili məhsulun yüksək inkişaf tempini şərtləndirən səbəb və amillərini nüfuzlu dünya alimlərinin, mötəbər beynəlxalq təşkilatların müzakirə mövzusuna çevirmişdir."

... Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin Sədri Heydər Əliyevin 2 iyul 1993-cü il tarixli bəyanatında deyilirdi: "Azərbaycan Respublikası adından bəyan edirəm ki, Azərbaycan dövlətinin daxili və xarici siyasətində heç bir dəyişiklik baş verməyəcəkdir. Bildirirəm ki, Azərbaycan demokratiya, siyasi plüralizm və azad iqtisadiyyat yoluna davam etdirəcəkdir. Azərbaycan dövləti insan hüquqlarına və bütün beynəlxalq hüquq normalarına riayət edəcək, respublikamızda başlanmış demokratik islahatlar bundan sonra daha geniş və sürətlə həyata keçirəcəkdir. Dünya dövlətləri ilə bərabərhüquqlu və qarşılıqlı faydalanma prinsipləri əsasında başlanmış iqtisadi əməkdaşlıq davam etdiriləcəkdir."

Bu dövrdə milli maraqlar üzərində həyata keçirilən siyasət və mənəvi mühitin təşəkkül tapması Heydər Əliyevin xalqımıza bəxş etdiyi ən böyük sərvətlərdən biridir. Ulu Öndərin nəzəri irsi milli dövlətçilik konsepsiyası, liderlik fəlsəfəsi üzərində qurulmuş idarəetmə siyasəti dövlətin və hər bir Azərbaycan vətəndaşının taleyində köklü dəyişikliklər yaratdı. Onun ideya və siyasətinin praktiki müstəvisi isə 2003-cü ildən İlham Əliyevin ölkə Prezidenti olduğu mədəni potensialla bu dialoqda öz sözünü deyir və mövqeyini sübuta yetirir.

Dövlətin mədəniyyət və mənəviyyat sahəsində siyasətinin müasir informasiya və qloballaşma dövrünün tələblərinə uyğun inkişaf etdirilməsi istiqaməti Prezident İlham Əliyevin çoxsaylı nitq və çıxışlarında öz konseptual əsasını tapmışdır.

Azərbaycanın iqtisadi sahədə keçid dövrünü uğurla başa vurması insan hüquqlarının təmin və müdafiə olunması üçün daha geniş imkanlar yaratmışdır. Bu, özlüyündə, iqtisadi resursların insan kapitalına çevrilməsində başlıca şərtlərdən biridir. Ona görə də, ölkə Prezidenti İlham Əliyev insan kapitalının formalaşmasında demokratikləşmənin əhəmiyyətini, onun daha da genişlənməsini və dərinləşməsini həmişə xüsusi qeyd etməkdədir. Belə ki, demokratiya və insan haqları bir-birini şərtləndirən, bir-birinə təminat verən fenomenlərdir. İctimai rəy isə bu təminatın reallaşmasında başlıca vasitələrdən biridir.

Ölkəmizdə insan hüquq və azadlıqlarının qorunması istiqamətində həm hüquqi baza genişlənmiş və dəqiqləşmiş, həm də müvafiq siyasi institutlar, ictimai təşkilatlar yaranmışdır ki, bunların da, fəaliyyəti ümumi mühitə təsirsiz ötüşmür. Ölkədə çoxpartiyalılıq şəraiti, vətəndaşlara, həmçinin siyasi, iqtisadi, elmi elitaya, mədəniyyət və incəsənət nümayəndələrinə öz iqtisadi-siyasi, sosial-mədəni və mənəvi mövcudluq formalarını şüurlu surətdə azad seçmək imkanları yaradılmışdır. Əlbəttə ki, müəyyən problemlər də yox deyil. Əminəm ki, onlar da tədricən öz həllini tapacaq, çünki dövlətin bu istiqamətdə iradəsi və səyləri artıq müsbət nəticələrini verməkdədir. Mən, əsasən, korrupsiya və inhisarçılıqla, məmur özbaşınalıqları və vəzifədən sui-istifadələr ilə bağlı problemləri nəzərdə tuturam ki, onların insan haqlarının müdafiə və təmin olunmasına olduqca mənfi təsiri var.

Transformasiya şəraitində insan haqlarından bəhs edən Leyla İsgəndərova yazır: "Xalqların hüquqları, heç şübhəsiz ki, kollektiv hüquqlardan ibarətdir, lakin kollektiv insan hüquqları üçüncü nəsil və xalqların hüquqları ilə bitmir. Kollektiv insan hüquqları daha geniş anlayışdır. Məsələn, həmkarlar ittifaqlarının hüquqları kollektiv insan hüquqları sayıla bilər. Bir sıra hallarda, müxtəlif fərdi hüquqların birləşməsi, artıq kollektivə məxsus olan sintetik hüquq yaradır. Məsələn, dinc yığıncaqlar keçirmək hüququ buna nümunə ola bilər.

İnsan hüquqlarının üçüncü nəsli haqqında məsələnin qoyuluşu və onun ətrafında gedən diskussiyalar, bu hüquqları özündə ehtiva edən və ya onları bəzilərinin məzmununu açan beynəlxalq sənədlərin qəbul olunması (məsələn, "İnkişaf hüququ haqqında" 4 dekabr 1986-cı il tarixli Bəyannamə) onu sübut edir ki, insan hüquqlarının siyahısı durğun halda deyil və o, müntəzəm surətdə davam etdirilə bilər."

İndiki transformasiya şəraitində insan hüquqlarının qorunması və təmin olunmasının səmərəliliyinin yüksəldilməsi üçün xüsusi beynəlxalq mexanizm və prosedurların daha da təkmilləşdirilməsi, habelə, bu istiqamətdə yeni texnoloji üsul və vasitələrin axtarılması prioritet məsələlərdən biridir. Beynəlxalq mexanizm və prosedurlar insan hüquqları sahəsində dövlətlərarası əməkdaşlığın səmərəliliyini yüksəltməyin mühüm vasitələrindən biridir.

Praktika göstərir ki, transformasiya şəraitində insan hüquqları sahəsində dövlətlərarası əməkdaşlıqda, əsasən, aşağıdakı iki istiqamətdən istifadə edilməlidir:

1) insan hüquqları sahəsində beynəlxalq nəzarət mexanizmləri;

2) insan hüquqları sahəsində beynəlxalq prosedurlar.

Beynəlxalq nəzarət mexanizmlərini və prosedurlarını eyniləşdirmək olmaz. Nəzarət mexanizmləri müəyyən təşkilati strukturlardan (komitələr, işçi qrupları, xüsusi məruzəçilər və s.), prosedurlar isə müəyyən informasiyanın öyrənilməsi qaydası və üsullarından və belə təhqiqatların nəticələrindən ibarətdir. Bir nəzarət orqanı çərçivəsində müxtəlif prosedurlardan istifadə oluna bilər. Beynəlxalq təşkilatların tətbiq etdikləri prosedurlardan hər hansı bir xüsusi nəzarət mexanizmi olmadan istifadə edilir.

Transformasiya şəraitində insan hüquqları sahəsində beynəlxalq prosedurları informasiyanın toplanması üsullarına və mənbələrinə görə, aşağıdakı kateqoriyalara bölmək olar:

1) dövlətlərin bu sahədə öz öhdəliklərinə əməl etmələri barədə məruzələrin nəzərdən keçirilməsi;

2) belə öhdəliklərin pozulması haqqında dövlətlərin bir-birinə qarşı irəli sürdükləri iddialara baxılması;




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

3) ayrı-ayrı fiziki şəxslərin, qrupların və ya qeyri-hökumət təşkilatlarının hüquqlarının dövlətlər tərəfindən pozulması ilə bağlı onların şikayətlərinə baxılması;

4) insan hüquqlarının ehtimal olunan və ya müəyyən edilmiş pozuntuları ilə əlaqədar halların öyrənilməsi.

Beləliklə, transformasiya şəraitində bütün dövlətlərin predmeti kimi, insan hüquqları məsələlərinin məzmunundan bir daha aydın olur ki, insan hüquq və azadlıqlarının universallığı dünya birliyinin ümumi işidir və bu, bütün mümkün səylərin birləşdirilməsini zəruri və tələb edir.

Məlumdur ki, əhalinin müxtəlif qrup və kateqoriyaları tərəfindən hansı ideya və dəyərlərin qəbul olunub-olunmaması, kütləvi şüurda, ictimai rəydə üstünlük təşkil etməsi sosial-iqtisadi, hüquqi islahatların istiqaməti və onların məzmun-mahiyyətinə əhəmiyyətli dərəcədə təsir göstərir. Müstəqillik yolunda uğurla addımlayan Azərbaycanda strateji, prioritet məsələ kimi hüquqi-demokratik və vətəndaş cəmiyyətinin qurulması müəyyənləşdirilmişdir. Belə ki, sosial-iqtisadi və ictimai-siyasi islahatların mahiyyəti və mənası sosial həyatın, bütün fəaliyyət sahələrinin tədricən demokratikləşməsindən və xalqın rifah halının daha da yaxşılaşdırılmasından ibarət olmalıdır.

Ə.Abbasov göstərir ki, demokratikləşmə yalnız "yuxarı"dan təhrik olunan və birtərəfli həyata keçirilən proses deyildir. Demokratikləşmənin gətirdiyi dəyişikliklər və islahatlar yalnız "aşağı"dan - sıravi vətəndaşlar tərəfindən dəstəkləndikdə, onların sosial məsuliyyət hissinə, sosial-iqtisadi və siyasi proseslərdə fəal iştirakına əsaslandıqda faydalı olur. Demokratikləşmə insanlara, sosial quruplara məxsus biganəliyin və passivliyin aradan qaldırılmasını nəzərdə tutur. Etibarlı vətəndaş mövqeyi, siyasi iradə möhkəmliyi olmadan demokratikləşməni "avtomatlaşdırmaq" mümkün deyildir. Belə ki, məhz vətəndaş fəallığı, sosiumun özünü tənzimləmə bacarığı hər hansı toplumu vətəndaş cəmiyyəti səviyyəsinə yüksəldir, insan hüquq və azadlıqlarının reallaşmasını təminatlandırır.

Qeyd edim ki, bəzi mütəxəssislərimizin işlərində vətəndaş cəmiyyəti və demokratikləşmə məsələlərinin təhlili zamanı vətəndaş mövqeyi, vətəndaşlıq şüuru, insanların iradəsi kimi məfhumlara az əhəmiyyət verilir, vətəndaş "cəmiyyət" anlayışının bir əlavəsinə çevrilir ki, bu da demokratikləşmənin mahiyyətinin tam təsvir edilməsinə imkan yaratmamış olur. Bu zaman cəmiyyətin özü dövlətlə qarşılıqlı münasibətdə adekvat tərəf kimi yox, xeyli dərəcədə zəif, gücsüz və passiv tərəf rolunda çıxış edir. Nəticədə, fərdlər və bütöv cəmiyyət üzərində dövlətin təzyiqi, siyasi hakimiyyətin məhdudlaşdırılmamış fəaliyyəti üçün ehtimal artır, insan hüquq azadlıqlarının təmin olunmasında çətinliklər meydana çıxır.

**VAHİD ÖMƏROV,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***

səs

Son səhifə 8 dekabr

## Çində istehsal edilmiş vaza hərracda rekord qiymətə satılıb



Avstriyanın Zaltsburq şəhərində keçirilən Asiya incəsənəti üzrə xüsusi hərracda Çində istehsal olunmuş vaza rekord qiymətə satılıb. XVIII əsrə aid vazanın ilkin çağırış qiyməti 30 min avro olsa da, Çindən telefonla hərraca qoşulan naməlum kolleksiyaçı bu sənət əsəri üçün 7,3 milyon avro ödəyib.

Almaniyanın "Nagel-Auktionen" firmasının icraçı direktoru Filipp von Hutten hərraca çıxarılan sənət əsəri ilə bağlı bildirib ki, bu vazadan dünyada cəmi beş ədəd mövcuddur. Ekspert deyib ki, mavi-qırmızı rəng kombinasiyasında olan bu mükəmməl sənət əsərini ərsəyə gətirmək üçün azı 100-150 vaza istehsal prosesində sıradan çıxırdı. Hazırlanma tarixçəsi yaxşı sənədləşdirilmiş vazanın hazırlandıqdan az sonra Çin imperatoruna təqdim olunması və onun tərəfindən bu sənət əsərinə yüksək dəyər verilməsi də məlumdur.

Ekspert bildirib ki, vaza üçün belə bir yüksək məbləğin ödənilməsi bir çoxları üçün anlaşılmazdır. Lakin hazırda çinli kolleksiyaçılar dünya hərraclarında 300-400 il əvvəl Çindən dünyanın müxtəlif ölkələrinə aparılmış incəsənət əsərlərini alır, öz vətənlərinə geri qaytarırlar. Asiya incəsənəti üzrə ixtisaslaşmış Zaltsburq hərracı isə həm satıcı, həm də kolleksiyaçılar üçün mühüm məkandır. Dekabrın 6-7-də keçirilən hərracda, ümumilikdə, 12 min obyekt hərraca çıxarılıb.

## "Arsenal"da ciddi itki



Avropa Liqasının qrup mərhələsində "Qarabağ"ın rəqibi olan "Arsenal"ın zədəli futbolçusu Rob Holdinqin durumuna aydınlıq gəlib. Klubun rəsmi saytında yer alan xəbərə görə, tibbi müayinədən keçən 22 yaşlı müdafiəçinin sol dizinin ön xaçabənzər bağlarının qopduğu müəyyənləşib.

Həkimlər onun 6-9 ay müddətinə yaşıl meydanlardan uzaq qalacağını açıqlayıb. Bu isə Holdinq üçün mövsümün bitməsi deməkdir. Qeyd edək ki, Holdinq İngiltərə Premyer Liqasının 15-ci turunda "Mançester Yunayted"lə qarşılaşmanın ilk hissəsində zədələnmişdi.

## Quldurluq və oğurluq etdiklərinə görə saxlanıldılar, digər cinayətləri də üzə çıxdı



Polis əməkdaşları quldurluq və oğurluq etdiklərinə görə saxlanılan şəxslərin digər cinayət əməllərini də müəyyən ediblər. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən xezerxeber.az-a bildiriblər ki, quldurluq etdiyinə görə tutulmuş S.Cəfərlinin ətrafında Suraxanı Rayon Polis İdarəsinin 33-cü polis bölməsinin əməkdaşları tərəfindən əməliyyat tədbirləri aparılıb. Nəticədə onun rayon ərazisində səkkiz avtomobildən pul və məişət əşyaları oğurladığı müəyyənləşdirilib.

Oğurluq etdiyinə görə saxlanılan Əyyub Süleymanovun ətrafında Şəki Şəhər Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən aparılan əməliyyat tədbirləri ilə onun dekabrın 3-nə keçən gecə şəhərdə "Mercedes" markalı səkkiz avtomobildən oğurluq etdiyi də məlum olub. Faktlarla bağlı araşdırmalar aparılır.

## Ronaldo "Yuventus"da ötən ayın ən yaxşı futbolçusu seçilib



"Yuventus"da noyabr ayının ən yaxşı futbolçusunun adı açıqlanıb. Qol.azın klubun saytına istinadən yaydığı xəbərə görə, Turin təmsilçisində ötən ayın ən yaxşısı Kriştiano Ronaldo olub. Noyabrda 5 matçda iştirak edən portuqaliyalı hücumçu, 3 qol vurub və 2 məhsuldar ötürmə edib.

## Yapon idmançı dünya rekordunu təzələyib



Fiqurlu konkisürmə üzrə Vankuverdə keçirilən Qran-Pri yarışlarının finalında yapon idmançı Rika Kixira qısa proqramda dünya rekorduna imza atıb. Hakimlər 16 yaşlı idmançı qızın çıxışını 82,51 balla qiymətləndiriblər.

AZƏRTAC TASS agentliyinə istinadla xəbər verir ki, bundan əvvəlki dünya rekordu 2018-ci ilin Olimpiya çempionu, 16 yaşlı rusiyalı Alina Zaqitovaya məxsus idi. O, bu rekordu noyabrda Moskvada keçirilən Qran-Pridə vurmuşdu. A.Zaqitova da Vankuver Qran-Prisində iştirak edir və öz qısa proqramını daha sonra təqdim edəcək.

Kixira yüksək eşelonda ilk mövsümünü keçirir. O, Yaponiya və Fransa Qran-Prisində qazandığı qələbədən sonra finala vəsiqə alıb. Yapon idmançı fiqurlu konkisürmə tarixində üçlü aksel və üçlü tulup elementlərini yarışlarda yerinə yetirən ilk qadın atletdir.

Məcburi proqram və balların sayına görə dünya rekordları (müvafiq olaraq 158,80 və 238,43 ballar) rusiyalı Zaqitovaya məxsusdur.

## Rapid və blits üzrə dünya çempionatının builki qalibləri hərəyə 350 min dollar mükafat qazanacaqlar



Sankt-Peterburqda keçiriləcək rapid və blits üzrə 2018-ci il dünya çempionatının qalibləri hərəyə 350 min dollar məbləğində mükafat qazanacaqlar. Bu barədə Rusiya Şahmat Federasiyasının mətbuat xidməti məlumat yayıb. Qadın turnirinin qalibləri isə hərəyə 150 min dollar əldə edəcəklər. Yarışların mükafat fondu, ümumilikdə, 1 milyon dollardır. Dekabrın 25-dən 31-dək keçiriləcək Sankt-Peterburq turnirində şahmatçılar üçün xüsusi viza rejimi təşkil edilib.

Rapid üzrə hazırkı dünya çempionu hindistanlı qrossmeyster Vişvanatan Ananddır. Blits üzrə dünya çempionu isə şahmat tacının sahibi norveçli Maqnus Karlsendir. Qadınlar arasında 2017-ci ildə rapid üzrə turnirdə klassik şahmat üzrə dünya çempionu çinli Tszyuy Ventszyun qalib gəlib, blits turnirində isə birinci yeri gürcüstanlı Nana Dzaqnidze tutub.

## "Barselona"nın futbolçusu 15 gün yaşıl meydanlardan uzaq qalacaq



"Barselona"nın zədəli futbolçusu Malkomun son durumu müəyyənləşib. Klubun saytında yer alan xəbərə görə, tibbi müayinədən keçən braziliyalı müdafiəçinin zədəsinin ciddi olmadığı məlum olub. Onun 10 -15 gün yaşıl meydanlardan uzaq qalacağı bildirilib. Qeyd edək ki, Malkom İspaniya kubokunun 1/16 finalında "Leonesa" ilə cavab matçında zədələnib.

## ELAN

ADPU-nun Biologiya müəllimliyi ixtisası üzrə V kurs tələbəsi Allahverdiyeva Aysel Elmar qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

Azərbaycan Dövlət İqtisadiyyat Universitetinin 1005 N li Beynəlxalq İqtisadiyyat fakültəsinin Dünya İqtisadiyyatı ixtisası üzrə III kurs tələbəsi Cəfərova Nərmin Habil qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompyuter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur

*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 5500**